SƏMƏD VURĞUN

# Azərbaycan



TARİXİ POEMA
1934-1935

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

SƏMƏD VURĞUN

# Azərbaycan

(tarixi poema, 1934-1935)

Şərq East Qərb West
Şərq-Qərb Nəşriyyat Evi
BAKI
2015

Səməd Vurğun. Azərbaycan (tarixi poema, 1934-1935)
Bakı, Şərq-Qərb Nəşriyyat Evi, 2015, 80 səh.

ISBN 978-9952-505-93-1

Məsləhətçi: Aygün Vəkilova
*Səməd Vurğun Fondunun prezidenti*

Redaktor və ön sözün müəllifi: Aslan Salmansoy
*filologiya üzrə fəlsəfə doktoru*

Ustad şair Səməd Vurğunun "Azərbaycan (tarixi poema, 1934-1935)" əsəri müəllifin öz avtoqrafı olan əlyazma əsasında ilk dəfə nəşr edilir. Kitabda əsərin tarixçəsi – yazılma səbəbi, qələmə alındığı tarix, neçə və hansı başlıqlardan ibarət olması, təqdim edildiyi müsabiqənin zamanı və şərtləri dəqiqləşdirilir, eləcə də mətnin bəzi tekstoloji cəhətlərinə toxunulur – əlavə, ixtisar və əvəzləmələrin səbəblərinə müxtəsər aydınlıq gətirilir.

Şərq-Qərb Nəşriyyat Evi BAKI 2015
www.eastwest.az
www.fb.com/eastwest.az

© Şərq-Qərb Nəşriyyat Evi, 2015

## Səməd Vurğunun "Azərbaycan" epopeyası, yaxud "Qırmızı üzlü albom"un tarixçəsi

*(Ön söz əvəzi)*

Səməd Vurğunun "Azərbaycan" adlı poema yazması, əslində, ədəbiyyatşünaslığa çoxdan – 1930-cu illərin ortalarından, şairin əsər üzərində işlədiyi vaxtlardan məlumdur: bu barədə həm müəllifin özü, həm dostları, həm də bəzi vurğunşünaslar məlumat vermişlər. Lakin poemanın müəyyən səbəblər üzündən əlyazmada olduğu kimi, bütöv – tam şəkildə çap edilməməsi, eləcə də bəzi ədəbiyyatşünasların əsərin özünü – müəllifin avtoqrafı olan əlyazmanı görmədən, tarixçəsini kifayət qədər öyrənmədən öz ehtimallarına, gümanlarına əsasən mülahizələr irəli sürmələri əsərlə bağlı dolaşıq fikirlərin meydana çıxmasına səbəb olmuşdur. Əvvəlcə dolaşıqlığa səbəb olan mülahizələrə nəzər salaq.

S.Vurğunun "Əsərləri"nin altıcildliyində deyilir: "S.Vurğun 1937-ci ildə "Azərbaycan" epopeyası adı ilə əsər yazmaq fikrində olmuş və onu Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibətilə elan edilmiş müsabiqəyə təqdim etmək istəmişdir. Məşhur "Azərbaycan" şeiri epopeyanın proloqu kimi nəzərdə tutulmuş və buraya "Aslan qayası", "26-lar", "Dar ağacı" kimi poemalar daxil edilmişdir. Bunu şairin arxivində saxlanan qırmızı üzlü albom da təsdiq edir. Lakin, görünür, S.Vurğun sonralar fikrini dəyişmiş və əsəri müsabiqəyə verməmişdir"[1] .

Şair-alim Bəxtiyar Vahabzadə də S.Vurğunun Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15-ci ildönümü münasibətilə elan olunmuş müsabiqə üçün "Azərbaycan" adlı "böyük bir poema" yazdığını, "Azərbaycan" şeirinin bu əsərin proloqu, bir çox poemalarının isə ("Dar ağacı", "26-lar", "Aslan qayası", "Qız qayası", "Talıstan") həmin əsərin hissələri olduğunu bildirir[2]. Müəllif əsərin adı çəkilən müsabiqəyə təqdim edilib-edilməməsi barədə məlumat vermir.

Qırmızı üzlü albom haqda söz açan vurğunşünas Qurban Bayramov da S.Vurğunun bu epopeyanı adı çəkilən müsabiqəyə təqdim etmək istədiyini, sonra nədənsə fikrini dəyişdiyini bildirir[3].

Vurğunşünas alim Həbib Babayevin əsərlə bağlı fikirlərinin bir qismi əvvəlkilərin təkrarı olsa da, müəllif fərqli mülahizələr də irəli sürür. O, "1930-cu illərin ortalarında S.Vurğunun "Azərbaycan" epopeyası üzərində düşünməyə başladığını, 30-cu illərdə bu epopeyanın xeyli hissəsini qələmə aldığını, sonralar isə zamanın əsərinin planını korrektə etdiyini və onun müəllif tərəfindən daha da genişləndirildiyini" diqqətə çatdırır, eləcə də şairin 1952-ci ildə qələmə aldığı "Zamanın bayraqdarı" poemasının "Azər-

---

[1] S.Vurğun. Əsərləri 6 cilddə, V c., B., "Elm", 1972, s. 412.

[2] B.Vahabzadə. Səməd Vurğun. B., "Azərnəşr", 1968, s. 58.

[3] Q.Bayramov. Lirik qəhrəman və zaman. B., "Elm", 1986, s. 65.

baycan" epopeyasını layiqincə tamamladığını bildirir[1]. Başqa sözlə, müəllif "Zamanın bayraqdarı" poemasının da "Azərbaycan" epopeyasının tərkib hissəsi olduğunu güman edir.

Şair-alim Xəlil Rza isə "Bakının dastanı" poemasının "Azərbaycan" epopeyasına daxil olduğunu ehtimal edir və yazır: "Zənnimizcə, "Bakının dastanı" bu epopeyanın davamıdır. Çünki heç ola bilməz ki, Azərbaycandan bəhs etdiyin halda yeni dövrdə onun bütün iqtisadi, siyasi, mədəni nailiyyətlərini özündə təcəssüm etdirən Bakıdan – Azərbaycanın ürəyindən danışmayasan"[2].

Ədəbiyyatşünas Yavuz Axundlu "S.Vurğunun otuz poema şəklində düşündüyü "Azərbaycan" dastanına şairin 1948-ci ildə yazdığı "Muğan" poemasının da daxil olduğunu güman edir"[3].

Vurğunşünas Atif Zeynallı "Səməd Vurğun sənəti" monoqrafiyasında şairin "Azərbaycan epopeyası" adlı çıxışından bir hissəni və altıcildliyin V cildində tərtibçilərin yuxarıda təqdim etdiyimiz qeydini xatırlatdıqdan sonra yazır: "Bütün bunlar və eləcə də "Ordenli qəhrəman" poemasının əldə olmaması bir daha sübut edir ki, S.Vurğun qabaqcadan nəzərdə tutduğu və "Azərbaycan epopeyası"na daxil etmək istədiyi 30 poemanın hamısını tamamlaya bilməmişdir"[4]. Müəllif dediklərinə bunu da əlavə edir: "S.Vurğunun söz xəzinəmizə bəxş etdiyi 26 poemadan 22-ni, o cümlədən "Komsomol poeması", "Macəra", "Muradxan", "Xumar", "Lökbatan", "Kənd səhəri", "Acı xatirələr", "26-lar", "Qız qayası", "Aslan qayası", "Bulaq əfsanəsi", "Dar ağacı", "Ölən məhəbbət", "Üsyan", "Bəsti", "Yazla qışın deyişməsi", "Ayın əfsanəsi", "Hörmüz və Əhrimən", "Bakının dastanı", "Muğan" və "Aygün" əsərlərini bu epopeyanın ayrı-ayrı fəsilləri hesab etmək olar"[5].

Müşahidələr S.Vurğunun haqqında danışdığımız "Azərbaycan" epopeyasının onun "Azərbaycan" şeiri ilə dolaşıq salındığını da təsdiq edir. Məqalələrindən birində Osman Sarıvəllinin "Yaddaş üçün qeydlər" dəftərçəsinə də toxunan İsrail Mustafayev şairin həmin qeydləri yaxın dostu S.Vurğundan bəzi məsələləri dəqiqləşdirmək məqsədilə etdiyini bildirir. Ümumi sayı altı və onlardan beşi "Komsomol poeması"nın yazılma tarixinin dəqiqləşdirilməsi və fəsillər arasındakı dağınıqlığı aradan qaldırmaq istəyi ilə bağlı O.Sarıvəllinin etdiyi qeydlərin sonuncusu belədir: "Demişdi ki (S.Vurğun – *A.S.*), "Azərbaycan" adlı yeni dastan yazmışam, oxumaq istəyirəm. Yadına salmaq"[6]. Ardınca İ.Mustafayev yazır: "Yaddaş latın əlifbası ilə yazılıb və tarixi göstərilməyib. Amma tezislərin sonuncu bəndindən

[1] Г.Бабаев. Самед Вургун (Очерк творчества). М., "Советский писатель", 1981, s. 125.

[2] X.Rza. "Bakının dastanı" və poema janrının bəzi məsələləri. Bir odlu gözləri, bir də xoş səsi. B., "Çinar-çap", 2007, s. 235.

[3] Y.Axundlu. Ədəbi portertlər (II nəşri ). B., "Elm", 2009, s. 128.

[4] A.Zeynallı. Səməd Vurğun sənəti. B., "Elm", 1990, s. 112.

[5] A.Zeynallı. Səməd Vurğun sənəti. B., "Elm", 1990, s. 113.

[6] İ.Mustafayev. Axdı təmiz sular kimi... "Azərbaycan" j. , 1985, №7, s. 187.



(İ.Mustafayev məqaləsində qeydlərin altısını da təqdim edib – *A.S.*) asanlıqla müəyyənləşdirmək mümkündür ki, bunlar 1935-ci ilə aiddir. Məlum olduğu kimi, "Azərbaycan" şeiri həmin vaxt qələmə alınıb və 1936-cı ildə çap olunub"[1].

İ.Mustafayev O.Sarıvəllinin S.Vurğunun yadına salmaq istədiyi "Azərbaycan" dastanının ustad şairin məşhur "Azərbaycan" şeiri olduğunu güman edir.

"Azərbaycan" adlı "dastan", "poema", yaxud "epopeya" adlandırılan əsər haqqında verilən məlumatlarda, göründüyü kimi, təmaslaşan mülahizələrlə yanaşı (mülahizələrin müxtəlif mütəxəssislər tərəfindən təkrarlanması əsərin orijinalına əsaslanmır, sadəcə, sonrakı müəlliflər əvvəlkilərin ehtimallarını bu və ya digər şəkildə təkrarlayırlar), üst-üstə düşməyən, hətta bir-birini təkzib edən məqamlar da var. Bunlar təbii suallar doğurur: bəs ədəbiyyatşünaslarımızın haqqında məlumat verdikləri "Azərbaycan" poeması (dastanı, epopeyası) konkret olaraq hansı əsərdir? S.Vurğun həmin əsəri nə vaxt qələmə alıb? Əsər neçə və hansı başlıqlardan ibarətdir? Adı çəkilən müsabiqə nə vaxt elan olunub, nə vaxt ona yekun vurulub? Doğrudanmı, əsər həmin müsabiqəyə təqdim edilməyib, ümumiyyətlə, bu əsərin taleyi necə olub, tarixçəsi nədən ibarətdir? Bu suallara əsər haqqında söylənən mülahizələrə, qısa da olsa, münasibətimizi bildirərək cavab vermək istəyirik: əvvəlcə, şairin "Əsərləri"nin altıcildliyində verilən məlumat haqqında.

Bəri başdan qeyd edək ki, altıcildliyin tərtibçiləri əsərin yazıldığı qırmızı üzlü albomun adını çəksələr də, belə məlum olur ki, onun özünə yox, "üzü"nə (üz qabığına; bəlkə, onlar da albom barəsində kimdənsə eşitmişlər) baxmışlar. Çünki albomun özündə həm poemanın yazılma tarixi, həm də başlıqları konkret göstərilib.

Bəlli bir həqiqətdir ki, tarixi günlərə həsr edilən müsabiqələr, bir qayda olaraq, qeyd olunası gündən əvvəl elan edilir. O da məlumdur ki, Azərbaycanda Sovet hakimiyyəti 1920-ci ildə qurulub və 15 illik də, təbii ki, 1935-ci ilə təsadüf edir. Altıcildlikdə verilən məlumatdan isə təbii suallar doğur: əvvəla, 1937-ci ildə, yəni Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyindən iki il sonra həmin tarixi hadisə ilə əlaqədar necə müsabiqə elan edilə bilərdi? İkincisi, 1937-ci ildə, yəni müsabiqə bitdikdən sonra S.Vurğun həmin müsabiqəyə təqdim etmək üçün necə "əsər yazmaq fikrində" ola, üstəlik, "sonralar fikrini necə dəyişə bilərdi?" Əslində, ASŞC Xalq Komissarları Şurasının Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibətilə "Yaxşı ədəbi əsərlər üçün" müsabiqəsi 1934-cü il 3 avqust tarixli qərarı ilə (904 saylı) elan edilmiş (9 mükafat nəzərdə tutulmuşdur: iki 1-ci, üç 2-ci, dörd 3-cü), əsərlərin təqdimi üçün son müddət 1935-ci il aprelin 1-i müəyyənləşdirilmiş ("İnqilab və mədəniyyət" jurnalı, 1934, №8, səh. 40), 18 mart 1936-cı ildə isə ona yekun vurulmuşdur (Müsabiqəyə yekun

[1] İ.Mustafayev. Axdı təmiz sular kimi... "Azərbaycan" j. , 1985, №7, s. 187.

vurulmasının uzadılmasına səbəb 15 illiyin 1936-cı ilin yanvarında Moskvada da qeyd edilməsi olmuşdur). Yetmiş dörd əsər təqdim edilmiş müsabiqənin nəticəsi 3 aprel 1936-cı il tarixli "Kommunist" qəzetində elan edilmiş, "Konkurs jürisi bunlardan yeddisini (I mükafat kimsəyə verilməyib. II mükafat M.S.Ordubadiyə, M.Müşfiqə, M.İbrahimova, III mükafat isə H.Cavidə, A.Şaiqə, T.Hüryana və H.Axundluya verilmişdir) yaxşı ədəbi əsər kimi mükafatlandırmışdır".

Arxiv materiallarından o da məlum olur ki, S.Vurğun altıcildliyin tərtibçilərinin, eləcə də digər ədəbiyyatşünasların güman etdiklərinin əksinə olaraq, "Azərbaycan" poemasını müsabiqəyə təqdim etmişdir. Bunu 1937-ci ildə etdiyi çıxışlarından birində şair özü təsdiq edir: "İki il əvvəl (yəni 1935-ci ildə – *A.S.*) mən "Azərbaycan" poemasının ilk variantını müsabiqəyə təqdim etdim. O vaxt mənə mükafat yox, poema haqqında yazılı mənfi rəy verdilər"[1]. (Maraqlısı odur ki, şairin müsabiqəyə təqdim etdiyi əsəri mükafat almasa da, özü Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibətilə 1936-cı ilin yanvarında Moskvada keçirilən tədbirlərdə Lenin ordeni ilə təltif edilir. Bu, müsabiqəyə yekun vurulmasından, təxminən iki ay əvvələ təsadüf edir.) Bu çıxış da şairin həmin əsəri həm 1937-ci ildən daha əvvəl yazdığına, həm də müsabiqəyə təqdim etdiyinə aydınlıq gətirir. Belə məlum olur ki, əsər haqqında məlumat verən mütəxəssislərin bəziləri şairin bu məsələ ilə bağlı mətbu çıxışlarına da kifayət qədər diqqət yetirməyiblər. Belə ki şair 1935-ci ildə etdiyi çıxışlarından birində əsər üzərində işləməsinin tarixini dəqiqliyi ilə göstərir: "Hal-hazırda Azərbaycan Sosialist Şuralar Cümhuriyyətinin Lenin ordeni almasına ithaf edilmiş "Azərbaycan" poeması üzərində işləməkdəyəm"[2]. 1937-ci ildəki çıxışlarından birində isə şair deyir: "Son zamanlar mən "Azərbaycan" adlı böyük bir epopeya yazmışam. Burada mənim vətənimin 2000 illik tarixinin əsas mərhələləri və ona azadlıq gətirən Sovet illəri öz əksini tapmışdır. Bu epopeya bir-biri ilə bağlı olan otuz poemadan ibarətdir. Epopeya Azərbaycan xalqının azadlıq mübarizəsinə böyük partiyamızın göstərdiyi tarixi xidmətlərə həsr edilmiş "Ordenli qəhrəman" poeması ilə bitir"[3].

Göründüyü kimi, şair "Azərbaycan" epopeyası üzərində 1935-ci ilin əvvəllərində işləməkdə olduğunu, 1937-ci ildə isə "əsər yazmaq fikrində olduğunu" yox, onu artıq bitirdiyini deyir.

Yeri gəlmişkən, A.Zeynallının mülahizələrinə də aydınlıq gətirək. İrəli sürdüyü fikirlərdən A.Zeynallının da "Azərbaycan" (tarixi poema) əsərinin orijinalını görmədiyi və əsər haqqında tədqiqatçıların 1980-ci illərdən verdikləri məlumatlarla tanış olmadığı bəlli olur. Belə olmasaydı, "Azərbaycan" tarixi poemasına daxil olmayan əsərləri onun fəsilləri hesab etməz, "Ordenli qəhrəman" poemasının əldə olmadığını diqqətə çatdırmazdı. Çünki onun adlarını çəkdiyi poemaların çoxu "Azərbaycan" (tarixi poema) əsərinə daxil deyil, eləcə də "Ordenli qəhrəman" poeması avtoqrafı əsasında A.Zeynallının həmin mülahizələri irəli sürməsindən 7 il əvvəl – 1983-cü ildə tərəfimizdən üzə çıxarılıb, mətbuatda dərc edilmişdi.

[1] SSRİ Yİ Katibliyinin 26 noyabr 1937-ci il tarixli yığıncağında S.Vurğunun hesabatı (surəti S.Vurğunun ev-müzeyindədir).

[2] "Kommunist" q., 23 aprel, 1935, № 94.

[3] S.Vurğun. Əsərləri 6 cilddə, V c., B., "Elm",1972,s.73.



İndi də "Azərbaycan"ların eyniləşdirilməsi səbəbinə aydınlıq gətirək. Məqaləsindən məlum olur ki, İ.Mustafayevin "Azərbaycan"ları eyniləşdirməsinin iki əsas səbəbi olub: birincisi, "Azərbaycan" şeirinin də 1935-ci ildə yazılması, ikincisi isə S.Vurğunun həm özünün, həm də sənət dostlarının bəzi əsərlərini "dastan" adlandırması. Qeyd edək ki, S.Vurğun məktublarından birində O.Sarıvəllinin "Gətir, oğlum, gətir" poemasını da dastan adlandırıb. İ.Mustafayev bu fakta işarə ilə yazır: "Səməd Vurğunun dilində "dastan" sözü tez-tez işlədilir və çox vaxt bəhs olunan əsərin janrı forması ilə o qədər də uyuşmur"[1]. Əslində, müəllif bu qənaətində haqlıdır (amma müəyyən qədər) və bu faktı B.Vahabzadə bir qədər də əvvəl qeyd edib. "Kənd səhəri", "Macəra", "Talıstan", "Muradxan" və "Bəsti" poemalarının janr məsələsinə toxunan B.Vahabzadə yazır: "Janrın tələbləri nöqteyi-nəzərindən yanaşsaq, bu əsərlərə poema demək olmaz, çünki onlarda həyatın geniş təsvirindən çox, müəyyən bir lövhə verilir...

Bu əsərləri müəllif özü poema adlandırdığına görə biz də şərti olaraq belə adlandıracağıq"[2]. B.Vahabzadə, doğrudan da, həmin əsərləri poema adlandırır.

İ.Mustafayevə bu məsələdə ona görə tam deyil, müəyyən qədər haqq qazandırırıq ki, bizim müşahidələrimizə görə "Azərbaycan" poemasına daxil olan əsərlər istisna olmaqla, S.Vurğun şeiri, xüsusilə kiçik həcmli şeirləri dastan adlandırmayıb. O, bəzən iri həcmli şeirlərini "poema" (məsələn, "Şairin ölümü", "Ordenli qəhrəman" şeirlərini), iri həcmli poemalarını isə "dastan" (məsələn, "Muğan" poemasını) adlandırıb. İ.Mustafayevi çaşdıran, yəqin ki, "Azərbaycan" şeirinin də həcminin böyüklüyü olub (23 bənd – 115 misra). O, güman edib ki, S.Vurğun 115 misralıq "Azərbaycan" şeirini "dastan" adlandıra bilərdi. Amma məsələ burasındadır ki, indi əlimizdə olan 115 misralıq mətn "Azərbaycan" şeirinin son variantıdır. İ.Mustafayevin, O.Sarıvəllinin qeydlər apardığını, eləcə də "Azərbaycan" şeirinin qələmə alındığını göstərdiyi 1935-ci ildə, yəni ilk variantında bu şeir cəmi on bənddən (10-cu bənd 2-nin təkrarıdır) ibarətdir, şeirin adı isə "Azərbaycan" yox, "Şairin türküsü"dür. Elə ilk çapında da şeir (göstərildiyinin əksinə olaraq, ilk dəfə 1936-cı ildə yox, 1935-ci ildə "Kirovabad bolşeviki" qəzetinin 7 iyun tarixli 129-cu sayında dərc edilib) ilk variantda daşıdığı adda ("Şairin türküsü") və həcmdədir (on bənd). Şair şeirə 1936-cı

[1] İ.Mustafayev. Axdı təmiz sular kimi... "Azərbaycan" j., 1985, №7, səh.183.

[2] B.Vahabzadə. Səməd Vurğun. Bakı, "Azərnəşr", 1968, s. 98-99.

il nəşrlərindən başlayaraq "Azərbaycan" adını vermiş, ona yeni bəndlər əlavə etmiş və "Poemanın proloqu" ("Ədəbiyyat qazeti", 7 noyabr, 1936, №27), "Poemanın proloqundan bir parça" ("Kirovabad bolşeviki" qəzeti, 18 noyabr, 1936, №268 və s.) qeydləri ilə dərc etdirmişdir.

Beləliklə, məlum olur ki, 1935-ci ildə S.Vurğunun, doğrudan da, "Azərbaycan" adlı əsəri olub, amma güman edildiyinin əksinə olaraq o, "Azərbaycan" şeiri yox, "Azərbaycan (tarixi poema)" əsəridir. O.Sarıvəllinin S.Vurğunun yadına salmaq istədiyi "Azərbaycan" adlı dastan da həmin əsərdir.

"Azərbaycan (tarixi poema)" əsərinin yazıldığı qırmızı üzlü albom hazırda S.Vurğunun ev-muzeyində mühafizə edilir. Titul səhifədə: Səməd Vurğun; "Azərbaycan" (tarixi poema); 1934-1935; Bakı – sözləri yazılmış, sonra isə bu əsərlər göstərilən ardıcıllıqla alboma səliqə ilə köçürülmüşdür: "Şairin türküsü", "Torpağın tələbi", "Sərgüzəşt", "Zərdüştün xülyaları", "Ölən məhəbbət", "Bulaq əfsanəsi", "Qılınc və Quran", "Dar ağacı", "Füzulinin dərdi", "Qız qayası", "Şairin ölümü", "Aslan və Mahniyar", "Acı xatirələr", "Ölməz qəhrəmanlar", "Üsyan və Quran" və "Ordenli qəhrəman". Elə buradaca qeyd edək ki, S.Vurğunun "dastan, poema və epopeya" adlandırdığı əsərin alboma səliqə ilə köçürdüyü "Azərbaycan (tarixi poema)" əsəri olduğuna heç bir şübhə yoxdur. Çünki şairin qeyd etdiyi kimi, bu əsərdə "Vətənin iki min illik tarixi" (atəşpərəstlikdən tutmuş əsərin qələmə alındığı dövrə kimi) təsvir edilir və "Ordenli qəhrəman"la bu əsər bitir.

Biz həmin əsərlərin alboma səliqə ilə köçürüldüyünü təsadüfi vurğulamırıq. Şairin əsərlərinin qaralama avtoqraflarını oxumaq çox çətindir: o, qaralamalarında bütöv parçaları, bəndləri, misraları, sözləri dəfələrlə pozub yenidən yazmış, əvəzləmələr, əlavələr və ixtisarlar aparmış, üzərlərində ciddi işləmişdir. S.Vurğunun poetik dilinin bulaq suyu kimi saf, təmiz, axıcı olmasının da səbəbi təkcə istedadı deyil, istedadını ağır zəhmət, gərgin əməklə yoğurması, əsərləri üzərində çox işləməsidir. Şair özü də çıxışlarından birində bu faktı xüsusi vurğulayır: "Mən şeirlərimin dili üzərində çox çalışıram. Hər kəsin anlaya biləcəyi sadə kəlmələr işlətməklə geniş kütlə daxilindəki ifadə formalarından da istifadə edirəm. Bu sadəlik olduqca çətin və mürəkkəb bir yoldur. Fikri ifadə zamanı müxtəlif ərəb, fars, rus və başqa kəlmə, ifadələr işlətmək yolu asan bir yoldur. Əsl çətinlik isə türk dilində türk şeirləri yaratmaqdır"[1].

Qırmızı üzlü albomdakı əsərlərdə isə şair çox cüzi dəyişikliklər aparmışdır. Aşkar görünür ki, bu, əsərin ağartma avtoqrafıdır. Əsərin buraya səliqə ilə köçürülməsi və tərtib edilməsi (şair alboma qırmızı üz də çəkdirib) şairin onu, həqiqətən də, 15 illiklə bağlı müsabiqəyə təqdim etmək, ardınca da, yəqin ki, nəşr etdirmək üçün hazırladığını bir daha təsdiq edir. Poemaya daxil olan əsərlərin albomdakından əlavə ayrıca avtoqraflarının

---

[1] S.Vurğun. Mən necə yazıram? "Ədəbiyyat qəzetəsi", 10 fevral, 1934, №4, s. 3.



olması da bu qənaətimizi, yəni həmin əsərlərin müstəqil əsərlər kimi yazıldığını, sonra bir ad altında ümumiləşdirilib müsabiqəyə təqdim edildiyini təsdiq edir. Poemanın vahid süjet xəttinin olmaması və buraya daxil olan əsərlərin bir qismini şairin sonralar müstəqil əsərlər kimi kitablarına daxil etməsi də fikrimizə qüvvət verir.

S.Vurğunun "Azərbaycan" poemasına 1934-1935-ci illər tarixini qoyması da maraq doğurur. Çünki poemaya daxil edilən əsərlərin tarixini şair ayrıca qələmə aldığı mənbələrdə 1935-ci il göstərib (şair çıxışlarından birində, yalnız "Azərbaycan" şeirini (poemada "Şairin türküsü") 1933-cü ildə yazdığını bildirib")[1]. Bu tarixi indi başqa vasitələrlə, köməkçi mənbələrlə dəqiqləşdirmək mümkün deyil. Şeir şairin göstərdiyi tarixdə də yazıla bilərdi. Digər tərəfdən isə "3" və "5" rəqəmlərinin oxşar olması bizdə nəşrlərdə mətbəə xətası nəticəsində "5"-in "3" kimi getməsi gümanını da yaradır). Güman edirik ki, şairin alboma 1935-ci illə yanaşı, 1934-cü il tarixini də qoyması 15 illiklə bağlı "Yaxşı ədəbi əsərlər üçün" müsabiqəsinin həmin il elan edilməsi ilə bağlıdır.

"Azərbaycan" (tarixi poema) əsəri haqqında söylənilən mülahizələrdə qaranlıq, izaha möhtac olan məqamlar yenə də var. Onlardan biri də poemanı təşkil edən əsərlərin sayı ilə bağlıdır. Şair bir parçasını yuxarıda təqdim etdiyimiz çıxışında həmin əsəri tamamladığını bildirdikdən sonra "Bu epopeya bir-biri ilə bağlı olan 30 poemadan ibarətdir", – deyir. Albomda isə, göründüyü kimi, həmin poemaya daxil olan əsərlərin sayı on altıdır: yeddi şeir, doqquz poema. Əslində, S.Vurğunun nə 1935-ci, nə də 1937-ci ilə qədər otuz poeması olmayıb. Şair ömrünün sonuna qədər otuza yaxın (28) poema qələmə alıb və B.Vahabzadənin də qeyd etdiyi kimi, onların da bir qismini S.Vurğun özü poema adlandırdığına görə tədqiqatçıları da poema adlandırmışlar.

Güman edirik ki, bəzi vurğunşünasların "Talıstan", "Bakının dastanı", "Muğan", "Zamanın bayraqdarı" və b. poemalarının da "Azərbaycan (tarixi poema)" əsərinə daxil olduğunu güman etmələrinin bir səbəbi də bununla, yəni şairin özünün həmin epopeyanın otuz poemadan ibarət olduğunu bildirməsi ilə əlaqədardır...

Xatırladaq ki, şair 1937-ci ildəki bəzi çıxışlarında həmin əsər üzərində işləyəcəyini və onun yeni variantını yaradacağını da vəd edib[2]. Amma S.Vurğun verdiyi vədin və tədqiqatçılarının güman etdiklərinin əksinə olaraq sonralar əsərə yenidən qayıtmamış, ona yeni başlıqlar əlavə edib "genişləndirməmiş", 1937-ci ilin noyabrında Moskvada etdiyi çıxışdan sonra həmin əsərin adını, ümumiyyətlə, çəkməmişdir. Bəs buna nə səbəb olmuşdur?

---

[1] S.Vurğun. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında. Əsərləri 6 cilddə,V c., B., "Elm", 1972, s. 273.

[2] Bax: SSRİ Yİ Katibliyinin 26 noyabr 1937-ci il tarixli yığıncağında S.Vurğunun hesabatı; ovaxtkı APİ-nin tələbələri ilə görüşü haqqında məlumat, "Kommunist" q., 3 aprel 1937.

Güman edirik ki, şairin verdiyi vədi yerinə yetirə bilməməsinin səbəbi ona qarşı təqib və təzyiqlərin artması ilə bağlıdır. Belə ki S.Vurğun xalq düşməni elan edilən şairləri (xüsusilə H.Cavid və M.Müşfiqi) "qanadının altına almaqda" günahlandırılmış, eləcə də millətçi kimi təqsirləndirilərək 1937-ci ildə Yİ-nin katibi vəzifəsindən azad edilmişdir. S.Vurğunun millətçilikdə ittiham edilməsinin əsas səbəbi milli ruhda, azərbaycançılıq mövzusunda yazdığı əsərlər, xüsusilə "Azərbaycan" şeiri olmuşdur. 1937-ci ilin payızında o vaxtkı NKVD-yə dindirmələrə çağırılan və növbəti dindirmələrin birindən "səhər çayı vaxtı" qayıdan Vurğun qardaşı Mehdixana demişdi: "... "onlar" mənim "Azərbaycan" şeirimdən bərk yapışıblar. Başa düşə bilmirlər ki, bu şeir mənim həyatımın və bütün yaradıcılığımın mənasıdır, rəmzidir... Mən bütün insanlara, bütün xalqlara və millətlərə səadət arzulayıram və bu yolda çalışıram.

Lakin bununla bərabər məndən ötrü ən müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır, onun dili və şeiri mənim vicdan səsimdir, o mənim doğma anamdır. Əgər buna görə məni millətçi etmək istəyirlərsə, qoy etsinlər. Bir gün gələr, tarix həqiqəti açar!"[1]

Şair konkret olaraq "Azərbaycan (tarixi poema)" əsəri ilə bağlı verdiyi vədi yerinə yetirə bilməsə də, azərbaycançılıq mövzusunu, doğma Vətənin tərənnümünü digər əsərlərində davam etdirmişdir. Sonralar şair deyirdi: "Azərbaycan" şeiri mənim həyatıma, bütün həyat proqramıma uyğundur. Mən nə qədər yaşayıb-yaratsam, 1933-cü ildə yazdığım bu kiçik şeirə aşıladığım motivləri bütün əsərlərimdə oxuyacaq, duyacaqsınız"[2].

Şairin bu şeirinə aşıladığı motivlər, yəni azərbaycançılıq – vətənçilik motivləri uzun illərdir ki, vurğunşünasların diqqət mərkəzindədir və mövzu ilə ilgili indiyə qədər çox dəyərli tədqiqatlar aparılmış, indi də aparılmaqdadır. Q.Bayramov yazır: "Məlumdur ki, ədəbiyyatımızda istər Vurğundan qabaq, istər onun yaşadığı dövrdə, istərsə də sonralar Azərbaycan, Vətən məhəbbəti mövzularında, hətta adları da "Azərbaycan", "Vətən" olan çoxlu şeir yazılmışdır... Lakin bu şeirlərin heç biri S.Vurğunun "Azərbaycan"ı qədər şöhrət qazana bilməmişdir"[3]. Müəllif bunun ümdə səbəbini "Azərbaycan" şeirində S.Vurğunun Vətən mövzusunu dərin şair səmimiyyəti ilə qələmə almasında görür: "Şeirdə Vətən hissi mücərrəd, ümumi hiss deyildir; bu, canlı, qızğın bir hislə yaşanmış vətəndaşlıq pafosudur; Vətəni xalq təfəkkürü, xalq mənəviyyatı, xalqın tarixi təcrübəsi ilə duymağın, dərk etməyin poetik məhsuludur. Məhz bu keyfiyyətlərə görə "Azərbaycan" – Vətən mövzusunda təkrarolunmaz poetik kəşfdir"[4].

[1] M.Vəkilov. Ömür dedikləri bir karvan yolu. B., "Yazıçı", 1986, s. 135.

[2] S.Vurğun. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında. Əsərləri 6 cilddə, V c., B., "Elm", 1972, s. 273.

[3] Q.Bayramov. Lirik qəhrəman və zaman. B., "Elm", 1986, s. 65–66.

[4] Q.Bayramov. Lirik qəhrəman və zaman. B., "Elm", 1986, s. 66.



B.Vahabzadə S.Vurğun yaradıcılığını dünya görmüş, sinəsi xəzinə, ağ saçlı müdrik qocaya bənzədir. Xalqın nağıl və dastanlarının, atalar sözü və məsəllərinin, muğamları və aşıq mahnılarının, sevinc və kədərinin bu qocanın sinəsində naxış bağladığını bildirir: "Bu qoca ağ saçlı azəri xalqının simvoludur, bəlkə də, şairin qəhrəmanlarından Azər babanın özüdür,"[1] – deyir.

Vurğunşünas Cəlal Abdullayev Azərbaycanı Vurğun yaradıcılığının məhvəri hesab edir, "bütün səyyarələr günəş ətrafında dövr etdiyi kimi, şairin də bütün poetik düşüncə silsiləsinin, obrazlar aləminin, söz kəhkəşanının.., nəyi varsa, hamısının bu məhvərin – Azərbaycanın başına dolandığını,"[2] – bildirir.

Ədəbiyyatşünas Yaşar Qarayev də həmkarları ilə eyni qənaəti bölüşür: "Vurğun üçün ən böyük tribuna, kosmik orbitdən uca xitabət kürsüsü poeziya idi. Məhz bu tribunadan şair bütün planeti görür və bütün planetdən görünürdü. Lakin daha mənalı olan odur ki, dünya və planet auditoriyasına da o, həmişə "Azərbaycan" monoloqu ilə müraciət edirdi. Vətəndaş və vətənpərvər şair üçün ana vətənin adından uca poetik xitab yox idi. Bir sözlə, bütün dünya bu poeziyada öz əksini tapırdı. Lakin dünyanın da mərkəzi bu poeziyada Azərbaycan idi"[3].

Ədəbiyyatşünas Qorxmaz Quliyev məsələyə bir qədər də dərindən və əhatəli yanaşır: "...biz hələ S.Vurğunun "Azərbaycan" şeirinin "Azərbaycan" adlı məkanın SSRİ daxilində, Azərbaycan xalqının sovet xalqı içində əriyib yoxa çıxmasının qarşısını almaqda, bu gün öyünə-öyünə vurğuladığımız mentallığımızın qorunub saxlanmasında rolunu lazımınca dəyərləndirməmişik"[4]. Müəllif haqlı olaraq bu qənaətə gəlir ki, "Azərbaycan" şeirindən sonra azərbaycanlılar üçün Azərbaycan əbədi olaraq ana vətəndir"[5].

Şübhəsiz, deyilənlər həqiqətdir və dilə gətirilənləri bundan məntiqli, obyektiv və obrazlı demək, bəlkə də, mümkünsüzdür. Üstəlik, xatırlatdıqlarımız mövzu ilə bağlı deyilənlərin çox cüzi bir qismidir. Vurğunun bütövlükdə yaradıcılığında azərbaycançılıq mövzusunda yazılanları kənara qoyub, təkcə "Azərbaycan" şeiri haqqındakı mütəxəssis rəylərini toplasaq, mübaliğəsiz deyirik ki, bir kitaba sığmaz. S.Vurğunun "Azərbaycan" şeiri ilə dil açmayan azərbaycanlı körpəsi olmadığı kimi, "Azərbaycan" şeiri haqqında yazmayan, fikir yürütməyən Azərbaycan ədəbiyyatşünası

[1] B.Vahabzadə. Səməd Vurğun. B., "Azərnəşr", 1968, s. 345.

[2] C.Abdullayev. Səməd Vurğunun sənət dünyası. B., "Yazıçı", 1986, s. 137.

[3] Y.Qarayev. Azərbaycan ədəbiyyatının Vurğun dövrü. S.Vurğun. Seçilmiş əsərləri 5 cilddə, I c., B., "Şərq-Qərb", 2005, s. 4.

[4] Q.Quliyev. "Mən bir uşaq, sən bir ana". Bədii fikirdə vətən mövzusu. "Azərbaycan" j., 2011 № 2, s. 169.

[5] Q.Quliyev. "Mən bir uşaq, sən bir ana". Bədii fikirdə vətən mövzusu. "Azərbaycan" j., 2011 № 2, s. 172.

da, demək olar ki, yoxdur. Digər tərəfdən o da həqiqətdir ki, "Azərbaycan" şeirindən sonra poeziyamızda vətənin vəsfi ilə bağlı yaranmış bütün bədii nümunələr bu və ya digər şəkildə S.Vurğunun dünyaduyum və deyim tərzinə söykənir, S.Vurğun ənənələrini davam etdirir... Bu baxımdan məhz S.Vurğunun "Azərbaycan" şeirinin pafosu B.Vahabzadənin uzun illər keçəndən sonra "Gülüstan" poemasını yazmasına imkan yaratmışdır"[1].

Tədqiqatçılarının da təsqid etdiyi kimi, Azərbaycan və azərbaycançılıq mövzusu S.Vurğun yaradıcılığının əsas ana xəttini təşkil edir, onun əsərlərinin baş mövzusu və baş qəhrəmanı Azərbaycandır.

Bu mənada S.Vurğunun bütövlükdə poetik irsini ən gözəl "Azərbaycannamə", Azərbaycan haqqında dastan, epopeya adlandırmaq mümkündür. Lakin fakt faktlığında qalır: şairin çıxışlarında "Azərbaycan" epopeyası, "Azərbaycan" dastanı adlandırdığı əsər ədəbi-tarixi fakt olaraq qırmızı üzlü alboma yazdığı on altı başlıqdan ibarət "Azərbaycan (tarixi poema)" əsəridir. Albomdakı əsərlərin başlıqlarından da açıq-aşkar görünür ki, yuxarıda adlarını çəkdiyimiz alimlərin güman etdiklərinin əksinə olaraq nə "Talıstan", nə "Bakının dastanı", nə "Zamanın bayraqdarı", nə "Muğan", nə də ki adları çəkilən digər poemalar "Azərbaycan (tarixi poema)"nın tərkibinə daxil deyil və şair həmin əsərləri yazar və çap etdirərkən onların "Azərbaycan" Q.Quliyev."Mən bir uşaq, sən bir ana". Bədii fikirdə vətən mövzusu. "Azərbaycan" j., 2011, № 2, s. 169. poemasının tərkib hissəsi olduğunu (poemaya daxil olan əsərlərin çapında bunu göstərdiyinin əksinə olaraq) qeyd etməyib.

Poemaya daxil olan əsərləri ayrılıqda çap etdirərkən ("Zərdüştün xülyaları" və "Sərgüzəşt" şeirlərindən başqa bütün əsərləri şair özü ayrı-ayrılıqda bəzi tekstoloji fərqlərlə dərc etdirib)[2] onların adlarında və mətnlərində bəzi dəyişikliklər aparmışdır. Belə ki yuxarıda da qeyd etdiyimiz kimi, "Şairin türküsü" şeiri "Azərbaycan", "Ordenli qəhrəman" şeiri "Şairin xəyalı", "Ölməz qəhrəmanlar" poeması "26-lar", "Üsyan və Quran" poeması "Üsyan", "Aslan və Mahniyar" poeması "Aslan qayası" adı ilə nəşr edilmiş, "Qılınc və Quran" və "Dar ağacı" poemaları "Dar ağacı" adı altında birləşdirilmişdir.

Müşahidə və müqayisələr şairin bu əsərdən parçaları dərc etdirərkən mətnlərində apardığı dəyişikliklərin (əlavələr, ixtisarlar, əvəzləmələr) bir

[1] Q.Quliyev."Mən bir uşaq, sən bir ana". Bədii fikirdə vətən mövzusu. "Azərbaycan" j., 2011, № 2, s. 169.

[2] Şairin özünün dərc etdirmədiyi "Zərdüştün xülyaları" və "Sərgüzəşt" şeirlərini biz avtoqraf əsasında "Azərbaycan" jurnalının 1983-cü il tarixli 11-ci sayında (s. 191–193) oxuculara təqdim etmiş, onları şairin 1996-cı ildə tərtib etdiyimiz "Seçilmiş əsərləri"nə də (B., I c., s. 75–79, "Şərq-Qərb") salmış, eləcə də "Azərbaycan (tarixi poema)" əsəri haqqında ətraflı məlumat vermişik. Bundan əlavə, S.Vurğunun kitablarına cəmi 32 misrası düşmüş "Ordenli qəhrəman" şeirinin 202 misralıq tam mətnini avtoqrafı əsasında "Bakı" qəzetinin 27 yanvar 1983-cü il tarixli sayında dərc etdirmişik.



qisminin sənətkarlıq məsələləri (həm də məzmunda bəzi dəqiqləşdirmələrə ehtiyacın duyulması), digər qisminin isə senzura tələbləri ilə əlaqədar olduğunu təsdiqləyir.

Əsərə diqqətlə fikir verildikdə (yəqin ki, məlum müsabiqənin müddətinin məhdudluğu səbəbindən) bəzi söz və ifadələrin, doğrudan da yerinə düşmədiyi və təkmilləşdirilməyə ehtiyacı olduğu hiss olunur. Məsələn, "Şairin ölümü" poemasının avtoqrafında belə misralar var:

*"Noldu söylədiyin axar qəzəllər?*
*Andımı həsrətlə səni gözəllər?"*

Yəqin ki, Vaqifin qoşma janrında öz poetik qüdrətini daha çox təsdiqlədiyini nəzərə alan şair çap zamanı həmin misralarda bu şəkildə əvəzləmə aparmışdır:

*"Noldu söylədiyin axar qoşmalar?*
*Andımı həsrətlə səni hər nigar?"*

Yaxud "Üsyan və Quran" poemasının:

"Havada mığmığa çalır insanı" misrasındakı "çalır" sözünü "sancır" sözü ilə, "Acı xatirələr" poemasında: "Anamın yanına namusla gəldim" misrasındakı "namusla" sözünü "ağ üzlə" ifadəsi ilə əvəz etmiş və misralar daha səlis və dəqiq məna kəsb etmişdir. Bundan əlavə, şair Türkiyə türkcəsindəki və öz – Qazax dialektində işlənən sözləri də (çocuk-uşaq, ixtiyar-qoca, əski-köhnə, süyüşmək-sürüşmək və s.) ədəbi dilimizdə işlənən sözlərlə əvəz etmiş, bəzi obrazların adını (Qəşəm-Kərəm) dəyişmişdir. Bu tip əvəzləmələr o qədər də çox deyil. Dəyişikliklərin əksəriyyəti siyasi mahiyyətlidir. "Aslan və Mahniyar" poemasının avtoqrafındakı:

*"O gündən titrədi yurdun üstündə,*
*Cütbaşlı qartalın qanlı bayrağı.*
*Tarixin doğduğu o qara gündə,*

Böyük bir ölkənin söndü çırağı" misraları ilə başlayan Rusiyanın Azərbaycanı işğalının mahiyyətini açan böyük bir parça (60 misra) nəşrlərdə ixtisar edilmişdir. Şair əsərin sonrakı hissəsində deyir:

*"Üç yüz il ayrıldıq ana dilindən,*
*Məktəbin adına dedik "uşkola".*
*...Yüz il Füzuliyə həsrət qalaraq,*
*Doğma analara söylədik "mama".*
*... Axdı Rusiyaya neft kəmərləri,*
*Daşıdı onları ilk dəmir yolu.*
*Tarixə hökm edən o gündən bəri,*
*Çalışdı yadlara Azəri oğlu".*

Görünür, sovet dövründə də davam edən işğalçılıq siyasətinin (ruslaşdırma, sərvətlərimizin talanması və s.) qabardılması "çekist ruhlu" sovet senzorlarının diqqətindən yayınmamış, nəticədə parça ixtisar edilmişdir.

Həmin əsərin:

*"Şəhər qalasının öz açarını,*
*Knyaz Sisyanova təslim verməli!*
*Yoxsa... Rusiyanın dağıdan əli,*

Böyük bir ölkəni yandıracaqdır" bəndindəki "Rusiyanın" sözü "ordumuzun" sözü (bu sözdən də dağıdanın Rusiya olduğu bəlli olurdu), sonrakı misradakı "Böyük bir ölkəni" (şair Azərbaycanı nəzərdə tutur) ifadəsi isə "Sizin də ölkəni" ifadəsi ilə (Azərbaycana "böyük ölkə" demək olmazmış) əvəz edilir.

Əsərdə işlədilən "türk" sözləri də başqa sözlərlə əvəz olunmuşdur. Belə ki "Şairin ölümü" əsərindəki:

"Dedin ki, türk dili, türk şeiri gərək" misrasındakı "türk" kəlmələri "el" sözü ilə əvəzlənmişdir.

Qəribə ixtisarlardan biri "Şairin türküsü" ("Azərbaycan") şeirində aparılmışdır. Şeirin 1-ci bəndinin 3-cü misrası avtoqrafında: "Terekləri, Arazları"dır. Şeirin ilk çapında da ("Kirovabad bolşeviki" q., 7. VI-1935) misra göstərilən kimidir. İkinci çapından ("Ədəbiyyat qəzeti" 7. XI-1936) başlayaraq, "Terekləri" sözü mətndən çıxarılmış, misra "Sakit axan Arazları" şəklinə salınmışdır. Bu ixtisarın səbəbi ilk baxışdan bir o qədər də anlaşılmır. Məsələnin mahiyyətinə vardıqda isə bəzi məqamlar üzə çıxır və ixtisarın səbəbi bəlli olur. Müəllif podtekstini anlamaq üçün birinci bəndi bütövlükdə xatırladaq:

*"Çox keçmişəm bu dağlardan,*
*Durna gözlü bulaqlardan,*
*Eşitmişəm uzaqlardan,*
*Terekləri, Arazları,*
*Sınamışam dostu, yarı".*

Əvvəla, belə bir təbii sual yaranır: şeirdə Azərbaycanın poetik xəritəsini cızan şair bu xəritəyə niyə Terek çayını da daxil edir. S.Vurğun Terek çayının yerinə Azərbaycandakı başqa bir çayın adını çəkə bilməzdimi? "Söz S.Vurğunun əlində mum kimi idi" və şübhəsiz qafiyə və ahəngə xələl gətirmədən o bunu çox asanlıqla edərdi. Deməli, "Terek" adını şair mətnə məqsədli daxil edib. "Niyə"sini anlamaq üçün əsərə bir də nəzər salaq. "Terekləri" sözü mətndən çı xarıldıqdan sonra:

*"Eşitmişəm uzaqlardan,*
*Sakit axan Arazları"*

misraları uzaq məsafədən Arazı eşitmək, ona qulaq asmaq mənasında başa düşülür. Əgər şair bu fikri çatdırmaq istəsəydi, "eşitmişəm" yerinə, elə "dinləmişəm" sözünü yazardı. Buradakı "uzaqlardan" sözü məsafə yox, zamana, daha dəqiq desək, keçmişlərə, uzaq keçmişlərə işarədir. Uzaq keçmişlərə xəyalən səyahət etdikdə isə yada Azərbaycanın ərazisindən Terekin də keçdiyi qədim torpaqları, sərhədləri, Dəmir qapı Dərbənd, eləcə də Şimali Qafqazın və Azərbaycanın ruslar tərəfindən işğalı düşür. Beləliklə, Terek və Araz çaylarının şair tərəfindən yanaşı işlədilməsinin, eləcə də "Terek" sözünün çap zamanı ixtisar edilməsinin səbəbi üzə çıxır. Hər halda mətni biz belə başa düşürük və qənaətimizin də səbəbi "Terek" sözünün sonrakı çaplarda ixtisar edilməsidir...



"Azərbaycan (tarixi poema)" əsərini orijinalda olduğu kimi ("Ölməz qəhrəman"dan başqa; məlum ideoloji məqamlar nəzərə alınmışdır) nəşr etdirməyimizin üç əsas səbəbi var: yuxarıda da qeyd etdiyimiz kimi, S.Vurğun özü bu poemanı qələmə aldığı şəkildə çap etdirmək istəmişdir. Birinci səbəb də bu, yəni şairin istəyini həyata keçirməkdir. Təkcə müəllif yox, bəzi ədəbiyyatşünaslar da bu əsərin tam şəkildə nəşr edilməsini zəruri saymışlar. Vurğunşünas Q.Bayramov hələ 1980-ci illərin ortalarında yazmışdır: "...indi həmin epopeyanı şairin nəzərdə tutduğu strukturda nəşr etməyə möhkəm əsas olduğu kimi, ciddi ehtiyac da vardır"[1]. İkinci səbəb də bu, yəni şairin tədqiqatçılarının da arzularını reallaşdırmaqdır. Üçüncü səbəb isə daha çox əsərin mətninin tekstoloji baxımdan öyrənilməsi ilə əlaqədardır. Düşünürük ki, həm şairin əsərləri üzərində apardığı yaradıcılıq işinin, iş üsulunun, həm də dövrün xüsusiyyətlərinin, senzura tələblərinin üzə çıxarılması, mühit – müəllif – mətn əlaqələrinin öyrənilməsi həm tədqiqatçıların, həm də şairi olduğu kimi dərk edən və etmək istəyən oxucuların marağına səbəb olacaqdır.

Əsərin orijinalda olduğu kimi nəşri həm şairin özünün, həm də tədqiqatçılarının istəklərini nəzərə alan "Səməd Vurğun fondu"nun prezidenti, şairin ev-muzeyinin direktoru, Vəkilovlar nəslinin layiqli varisi Aygün Vəkilovanın tövsiyəsi əsasında həyata keçirilir. Bu həm nəvənin soyadını daşımaqdan fəxarət duyduğu müdrik Babasının ruhuna ehtiramı, həm də Azərbaycanın əbədi Vətən statusu qazanmasının poetik düsturunu vermiş, əsərləri hər birimizi bu gün də azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməyə səfərbər edən S.Vurğunu daha yaxından tanımağa yaratdığı fürsətdir.

**Aslan Salmansoy**
*filologiya üzrə fəlsəfə doktoru*

---

[1] Q. Bayramov. Lirik qəhrəman və zaman. B., "Elm", 1986, s. 65.




## Şairin türküsü

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan,
Eşitmişəm uzaqlardan,
Terekləri, Arasları,
Sınamışam dostu, yarı.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Demək doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan! Azərbaycan!

Mən bir çocuq, sən bir ana,
Odur ki bağlıyam sana.
Hankı səmtə, hankı yana,
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Fəqət səndən gen düşəndə
Ayrılıq məndən düşəndə,
Saçlarıma dən düşəndə,
Boğur aylar, illər məni,
Qınamasın ellər məni.

Bir tərəfin bəhri – Xəzər,
Yaşılbaş sonalar gəzər.
Xəyalım dolanar gəzər,
Gah Muğanı, gah Eldarı,
Mənzil uzaq, ömür yarı.

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır,
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin!

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə,
Nəsillərdən nəsillərə,
Keçən bir şöhrətin vardır,
Oğlun, qızın bəxtiyardır.

Hey baxıram bu düzlərə,
Ala gözlü gündüzlərə,
Qara xallı ağ üzlərə,
Könül istər şeir yaza,
Gəncləşirəm yaza-yaza.

Sıra dağlar, gen dərələr,
Könül açan mənzərələr,
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin,
Aranın, yaylağın sənin!

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən;
Demək doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan! Azərbaycan!

## Torpağın tələbi

Şairim! Qələmi götür də dinlə,
Bir yeni dastan yaz öz əllərinlə!
Dünyanın qoca bir şahidiyəm mən,
Örtülü qız kimi qaçıb gizlənən,
Dilsiz əsrləri yarıb keçmişəm,
Günəşdən payımı mən də içmişəm.

Başım dəfələrlə düşdü qorxuya,
Gözlərim getmədi şirin yuxuya.
Döyüşlər səslənir qulaqlarımda...
Mənim durnagözlü bulaqlarımda,
Qanlı süngüsünü yudu çoxları.
Başımın üstündə düşmən oxları,
Fırlana-fırlana sancıldı yerə,
Xələtlər payladım hər cahangirə...

Yaşıma dolduqca qanlara doydum,
Hər daşın altında bir oğul qoydum.
Ah... o qılıncları, o qalxanları
Sinəmin üstündən axan qanları
Nəsildən-nəsilə verdim yadigar
Üstü zər yazılı bir keçmişim var!
Üstümə hər gələn bac aldı keçdi,
Yaşım döyüşlərdə qocaldı keçdi.
Eşitsin nəslimiz məndə nələr var –
Məndə həqiqətlər, əfsanələr var!



## Sərgüzəşt

Bir tərəfdə düyün, bir tərəfdə yas,
Böylə keçinmişdir dilsiz əsrlər.
Şairim! Könülün dediyini yaz,
Odur bu dünyada ən böyük əsər!

Deyirlər, bu yerin xəyalı şaşqın,
Ağızlarda gəzən sevdası varmış.
Könüllər havalı, duyğular daşqın,
Sel kimi kükrəyib, coşub axarmış.

Deyirlər, suların axar yerində,
Çadırlar qurulub, yurd salınarmış.
Dumanlı dağların ətəklərində,
Mal-qara bəslənib, ot çalınarmış.

İlxılar qarışıb kişnəyəndə at,
Batarmış göylərin ildırım səsi.
Burda öz-özünə axarmış həyat,
Axarmış suların xoş zümzüməsi.

Üstündə qıy vurub tərlan səslənən,
Dağların başını duman alarmış.
Günəşdə, havada, suda bəslənən,
İnsanlar az ölüb, gec qocalarmış.

Axarmış su kimi südü, ayranı,
Şəkinin, Şirvanın, Gəncəbasarın.
Qarışıb bir yerə dağı, aranı,
Dili tutularmış boranın, qarın.

Qaçanda Qazağın köhlən atları,
Bağrı yarılarmış dəli göylərin.
Çökərmiş altında yerin qatları,
Dirəyi titrərmiş ağac evlərin.

Qoyunlar, quzular düzdə, bələndə,
Səs-səsə verişib, mər-mər mələrmiş.
Qapıya bir əziz qonaq gələndə
Xınalı erkəklər qurban gələrmiş.

Deyirlər, qocalar, düşkün qarılar,
Qaranlıq damlara doldurularmış.
Acından quruyub ölərmiş onlar,
İnsanın nə yaman adəti varmış!

Sonra cəsədləri atıb çöllərə,
Didib dağıdarmış qurdlar və quşlar.
Tarix bir karvandır, həyat bir dəvə,
Bir əfsanə gəlir bizə olmuşlar.

Dillənin, ey sönmüş atəşgədələr!
Odlara yandımı dağlar gözəli?
Tarix! De, başından keçmişdir nələr?
Nələr törətmişdir insanın əli?

Ey böyük bəşərin çocuqluq yaşı,
Nə çirkin, nə gülünc bir keçmişin var!
Atəşlər aşiqi Zərdüştün başı
Qalmış əsrlərdən bizə yadigar.



## Zərdüştün xülyaları

Üç min il keçəcək, dönəcək zaman,
Batacaq yaslara xain Əhrimən –
"Təsliməm" deyəcək ulu Hürmüzə.
Qaranlıq gecələr dönüb gündüzə,
Əlvida deyəcək qaranlıqlara...
Günəş hökm edəcək borana, qara.
Yerdən çəkiləcək soyuq və azar
Hər günün, gecənin bir qanunu var.
Ətirlər saçacaq ətrafa güllər,
Gecənin qoynunda ötən bülbüllər
Səs-səsə verişib toy başlanacaq,
Həyat seviləcək, alqışlanacaq....
Aşıb-daşacaqdır bağlar, bağatlar
O vaxt uzanacaq günlər, saatlar.
Gecənin ömrüsə gödələcəkdir...
Tarixə böylə bir gün gələcəkdir!
Düşəcək sulara yıldızlar, aylar,
Artıq olmayacaq körpüsüz çaylar.
Əriyib axacaq dağların qarı,
İlanlar mələşən çöllərə sarı.
Yaşıl don geyəcək susuz yamaclar,
Boysuz olmayacaq otlar, ağaclar.
Dünyanın şöhrəti olacaq insan,
Nə azar qalacaq, nə ölüm, nə qan...

İnsan oğlu yer üzünə
Gəldiyindən ta bu günə
Qapılmışdır xəyallara...
İstərmisən? Get də ara.
Sirri dərin, fikri dərin,
Daş ürəkli əsrlərin,
Əfsanələr ocağını!
Al da onun sorağını.
Divarları uçub qalmış,
Yazısını tozlar almış,
Məbədlərin görüşündən...

Gəl, oxucum! Yaxın gəl sən!
İnsan oğlu azad bir quş –
Əzəldən o məftun olmuş,
Azadlığın xülyasına.
Atıldıqca dəryasına,
Xəyalların, fikirlərin,
Bəzən dayaz, bəzən dərin,
Dənizlərdə kürək çəkmiş...
Tarix nələr görəcəkmiş!

O gəzdikcə hər ölkəni,
Dənizlərin ağ yelkəni
Dalğaları yara-yara,
Yellənmişdir uzaqlara.
Dənizlərdə qopan rüzgar,
Qasırğalar, fırtınalar,
Quduz kimi hey qudurmuş
İnsanla üz-üzə durmuş.

Gəl, ey Zərdüşt! Gəl də dinlə!
Hesablaşaq biz səninlə.
Tarix uzun bir körpüdür
Əfsanədən həqiqətə.
Bax insana, təbiətə,
Bax gecəyə, bax gündüzə.
Sığındıqca sən Hürmüzə
Xəyalların söndü göydə -
Yer başına döndü göy də...
Daha bilməm keçdi nələr!
Sən ey sirlər, əfsanələr
Dünyasının böyük başı!
Yıldızların ilk sirdaşı!
Uzaqdansa dinlə barı,
Səndən sonra olanları.

İnad bəşər yorulmamış,
Nə yay bilmiş, nə də ki qış.
Nə soyuqdan, nə istidən,



Nə alovdan, nə tüstüdən,
Qamaşmışdır gözlərimiz.
Dəryaların sirrini biz,
Çox aradıq, çox axtardıq.
Gedər-gəlməzlərə vardıq...
Bizim cəsur elçilərdən,
Bir parası batıb hərdən.
Girdabları yara-yara,
Yem olmuşdur balıqlara!

Yerin şöhrətidir əzəldən insan,
İnsan yer üzünə tanrı gələli.
Bir tərəfdə həyat, bir tərəfdə qan,
Nələr yaratmamış insanın əli!

Bəşər yorulmamış əsrlər boyu,
Açarsız, qapısız əfsanələrdən.
Könül bir çeşmədir ki, onun suyu,
Yağışlar altında bulanmış hərdən...

Bir yanda şahların qan rəngli tacı,
Bir yanda zəncirli qullar dünyası.
Bir yanda bir quru çörək möhtacı,
Sakit axşamların qərib röyası...

Nəbilər, dahilər, ərlər, ərənlər
Həyat meydanında çapmış atını.
"İşıqlı bir günə yol göstərənlər" –
Tapdamış bəşərin xatiratını!

## Ölən məhəbbət

Gətir xəyalına on dörd yaşında
Həyası üzündə, ağlı başında,
Norəstə bir qız ki, dodağı aldır –
Demə, əfsanədir, demə, xəyaldır.
Onun sirdaşıdır çiçəklər, otlar,
Heyrandır hüsnünə göydə buludlar.
Yanağı lalədən daha qırmızı,
Günəşin yavrusu o dağlar qızı.
Göz yaşı görməmiş ala gözləri,
Həyata ilk dəfə baxandan bəri.
Saçları bir qucaq, yerlə sürünür,
Ayın dövrəsində bulud görünür.
Salıncaq qolları qızın bir qulac,
Oylağıdır onun hər çöl, hər yamac.
Seyr edər gecənin ay işığını,
Oxşar təbiətin yaraşığını.
Azad bir könül ki, sevdası dərin,
Səhərin qoynunda doğan ülkərin,
Çıxar sorağına dediyim gözəl,
Könlündə sirli, gizli bir əməl.
Arabir boylanıb sıx buludlara,
Baxışı göyləri hey yara-yara,
Dalıb xəyallara o sevdalı qız,
Fəqət, nə fırça var, nə də bir kağız...

Bəzən də seyr edir qayalıqları,
Əriyir gözündə dağların qarı.
Dərin dərələrdə qaynar bulaqlar,
Bulaqlar üstünə gələn uşaqlar,
Bir keçi, bir qoyun, bir əmlik quzu,
Axıb şırıl-şırıl süzülən bir su,
Budaqdan ayrılıb bir yaşıl yarpaq,
Göylərin altında yaşayan torpaq,
Qızın diqqətini çəkir özünə



Bütün bir kainat gəlir gözünə.
Dalır xəyallara o sevdalı qız,
Fəqət, nə fırça var, nə də bir kağız...

Bu axşam qızcığaz çatmış qaşını,
Bir ağac altında öz qardaşını,
Çağırıb, xəlvətcə tutmuşdur dilə:
"Qardaşım! Eldəniz! Bir məni dinlə!
Deyilsən özgəsi, öz qardaşımsan,
Çocuqluqdan bəri öz sirdaşımsan.
Atıldıq səninlə dağdan, dərədən,
Ayağın sürüşüb yıxılanda sən,
Yaranı bağlayıb yarpız qoymuşam,
Ağlayıb-ağlayıb cana doymuşam.
Yemlik düşürmüşük çöldən, yamacdan,
Alma da dərmişik çıxıb ağacdan.
Əmdik bir ananın ılıq südünü,
Baş-başa dinlədik hər öyüdünü.
Birdir ürəyimiz, birdir qanımız,
Hissimiz, ruhumuz, həyəcanımız.
Yatıb bir beşiyin laylasında biz,
Evin yaraşığı olduq ikimiz.
Anam acıqlanıb döyəndə səni,
Vurduğu yumruqlar ağrıtdı məni.
İsti göz yaşları axdı gözümdən
Mən ayrı bilmədim səni özümdən...
Bütün saydığımı gətir də yada,
Ağlar qalasıyam yoxsa dünyada...
Elin qaydasınca, qanununca biz,
Bir bacı, bir qardaş evlənməliyiz.
Bunları duyduqca, düşündükcə mən,
Bil ki, ayaqlarım üzülür yerdən.
Tüklərim ürpəşir, tutulur dilim.
Başqadır, qardaşım, mənim sevgilim!
O, dağlar başında bir gənc çobandır.
Yazıq həsrətimlə xeyli zamandır
Yuxusuz gecələr keçirir inan!

Məndən ümidini kəsərsə bir an,
Başına gen dünya, yəqin, dar olar –
İşi gecə-gündüz ahu-zar olar".

Eldəniz:
"Bəs atan? Bəs anan? Nə deyər onlar?
Hər elin, hər günün, öz adəti var.
Bütün bu insanlar tüpürər bizə
Cəzalar verilər hər ikimizə..."

Məyus baxışlarla qızcığaz dönür,
Həyatın altında bir günəş sönür...
Ay düşür Araza, Araz lal axır,
Ayın işığında bir xəyal axır...

Axşam qaranlığı düşdüyü zaman
Mal-qara toplaşır ta uzaqlardan.
Ürgələr oynaşır, atlar güləşir.
Qoyunlar səs-səsə verib mələşir,
Elə bil toy düşür bir böyük düzə,
İnsanlar yalvarır təpəl öküzə:
"Sən ey yer üzünün şöhrəti öküz!
Bütün nəsillərin qüvvəti öküz!
Yerin nemətisən, uğurlusan sən
Bir bəri gəl, bəri, öpüm gözündən!
Yerimi şumlayıb əkən də sənsən,
Ağır barxanamı çəkən də sənsən!
Böyütdük səni biz dana vaxtından,
Artdı naxırımız sənin baxtından.
Səndə nə sirlər, nə qüdrətlər var!
Sənin qüvvətinə baş əyir dağlar.
Bərəkət gətirir o xoş nəfəsin,
Qapımız şənlənir çıxanda səsin.
Sən ey yer üzünün şöhrəti öküz!
Bütün nəsillərin qüvvəti öküz!
Get, ulu Hürmüzə yalvar ki, bir də
Ölüm və xəstəlik olmasın yerdə..."



## Bulaq əfsanəsi

Deyirlər, bəşərin çocuqluq yaşı,
Daima titrəmiş ölümə qarşı.
Ölüm! O matəmin pərişan səsi,
Bəşərin ilk dərdi, ilk fəlsəfəsi.
Açarsız, qapısız dəniz kimi lal,
Üstündə çırpınıb döyünmüş xəyal...
Onun dəhşətini duyduğu zaman,
Şaşırmış cəbhədə bəzən qəhrəman.
Bəzən də yaşamaq həvəsilə tək,
Bir insan ətrafa qılınc çəkərək
Bütün bir ordunu heyrətə salmış,
Xeymələr dağıdıb, çadırlar almış!
Ölüm! O matəmin pərişan səsi,
Bəşərin ilk dərdi, ilk fəlsəfəsi.
Düşündürür bizi bu gün və yarın;
Böyük dahilərin, filosofların,
Duyub düşündüyü bu qorxunc cahan –
Sirlər yuvası olmuş hər zaman.

Onun qüvvətilə düşür xəzəllər,
Şairin ilhamı dilbər gözəllər,
Onun pəncəsilə torpağa dönür,
Parlayan bir həyat onunla sönür.
Sanma ki, qorxuncdur dediyim gözəl,
Kainat bir əməl, ölüm bir əməl.
Onsuz bu dünyanın olmazdı sonu,
Səadət və həyat yaratmış onu.
Onsuz açılmazdı şüur və xəyal,
Donardı bir yerdə arzu, ideal.
Onsuz açılmazdı yeni çiçəklər,
Uçmazdı düzlərdə ağ kələbəklər.
Onsuz dəyişməzdi yıldızlar, aylar,
Göylərin altında məğrur saraylar,
Verərdi hökmünü gündə bir qana,
Qılınca, süngüyə, topa, qalxana.
Düşməzdi şahların tacı başından,
Küsərdi hər şeyə könül və insan.
Hər əski ənənə, hər əski adət,

Məhəbbət, iztirab, gülüş, qiyafət,
Məncə bıqdırardı bəşəri hər an,
Eyni dodaqlarla gülən bir cahan...
Ölümlə çarpışır ağır kainat,
Ölüm də başqa bir sevdalı həyat,
Onda qərinələr, onda nələr var!
O məchul gözəli çox aramışlar,
Fəqət sorağını alan olmamış,
Yenə öz yerində hər bahar, hər qış.
Bəşər xəyallara qapılıb hərdən
Təsəlli bulmuşdur əfsanələrdən.

Deyirlər, Şirvanda bir bulaq varmış,
Suyu almaz kimi parlaq axarmış.
Gözəlmiş bulağın yar-yaraşığı,
Oynarmış üstündə günün işığı.
Düşərmiş qoynuna zərif kölgələr,
Deyirlər, bu sudan Xıdır peyğəmbər –
Gəlib təsadüfən içmiş doyunca,
O gündən ölməmiş tarix boyunca.
İnsan donundakı o qanadlı quş,
Əsrlərdən bəri uçub yox olmuş.
Fəqət deyirlər ki, o yenə sağdır
İslamın dar günü qayıdacaqdır...
Bu şirin əfsanə gülünc olsa da,
Qalmış əsrlərcə qoca dünyada.
Bulağın şöhrəti düşmüş dillərə
Yayılmış bu xəbər uzaq ellərə.
Aramış elçilər yerini bir-bir,
Almış sorağını İsgəndər Kəbir,
Sürüb karvanını gəlmiş Şirvana.
Adamlar salaraq o dörd bir yana,
Arayıb, axtarıb heç yorulmamış,
Bulaqdan bir əsər, bir iz bulmamış.
Həsrətli gözlərlə bizi tərk etmiş
Fəqət karvanını yükləyib getmiş...
Ey ana torpağım, ey əziz vətən!
Bilirsən, dünyada gözlərinlə sən,
Nə odlar görmüsən! Bu bir həqiqət,
Fəqət darılmamış sana təbiət!



## Qılınc və Quran

Qafqaz yaşıl, Qafqaz sərin,
Yıldızların, günəşlərin,
Oylağıdır bizim diyar,
Hər daşında bir çiçək var.
Dumanları, buludları,
Adam boyunda otları,
Can gətirir xəstələrə.
Dumanlı dağ, sulu dərə,
Ağacdakı yaşıl yarpaq,
Taxıl verən qara torpaq,
Tarladakı sarı sünbül
Çöllərdəki o vəhşi gül
Göy yaylaqlar, sərin dağlar
Bu almalı narlı bağlar,
Qafqaz yaşıl, Qafqaz sərin
Gözü düşmüş ərəblərin...

Bu torpağın oğlu, qızı,
Yanaqları al qırmızı,
Qara qaşlı, qara gözlü,
Gülər üzlü, şirin sözlü.
Qarabağın şikəstəsi,
Anaların doğma səsi,
Beşik başında laylalar,
Bu aranlar, bu yaylalar,
Səhər-səhər xoruz banı,
Dəvələrin yük karvanı,
Qatar-qatar uçan quşlar,
Bu enişlər, bu yoxuşlar,
Durnaların xoş avazı,
Aşıqların simli sazı,
"Bu dünyada mənəm" deyə
And içmişdir gözəlliyə.
Qafqaz yaşıl, Qafqaz sərin,
Gözü düşmüş ərəblərin.
Od içində Ərəbistan
Yanır torpaq, yanır insan,
Yanır həyat, yanır duyğu,
Nə qumlarda soyuq bir su,

Nə günəşdə mərhəmət var,
Nə də bizim sərin dağlar.
Yerin bağrı suya möhtac
İnsanların baxışı ac...
Nə qapıda bir xırman var,
Nə də evdə dolu anbar.
Qafqaz yaşıl, Qafqaz sərin,
Gözü düşmüş ərəblərin...

Hər tərəfdə qum dənizi,
İnsanların bət-bənizi
Daş kömürdən daha qara,
Düşən azar, düşən yara,
Təbibsizdir, davasızdır,
Buludsuzdur, havasızdır.
Qafqaz yaşıl, Qafqaz sərin,
Gözü düşmüş ərəblərin...

Yağış yağar narın-narın,
Çocuqların, anaların,
Aclığından batmış ordu.
Peyğəmbərin böyük yurdu...
Əlindəki zərli quran
Vədə verir bir tanrıdan...
Yerin bağrı yarıq-yarıq,
Torpaq arıq, insan arıq
Fəlakət çulğamış yeri,
Ordular da dönür geri
Qanlı, qorxunc, cəbhələrdən.
Məhəmmədsə dalır hərdən
Sakit, sonsuz xəyallara
Buludları yara-yara.
Qafqaz yaşıl, Qafqaz sərin
Gözü düşmüş ərəblərin...

Bir gün ərəblərin ac orduları
Sağ əlində qılınc, solunda quran.
Hücuma başladı cənuba sarı
Onun qarşısında əyildi İran.



Səyirtdi düzlərdə ərəb atları,
Ayaqlar altında insan başları.
Titrədi altında yerin qatları,
Çatıldı Qafqazın qara qaşları...

Tanrının əmrinə baş əyin deyə,
Havada parladı qılınc və Quran.
Dayandı ordular süngü-süngüyə,
Hər tərəfdə ölüm, hər tərəfdə qan.

...O qorxunc zamanlar, o qanlı anlar,
Analar saçını bir-bir yolanda,
Başını köksünə dayadı dağlar,
Qafqazın bayrağı təslim olanda...

O gündən titrədi məscid şamları,
Qərib gecələrin ay işığında.
Susdu ana yurdun söz axşamları,
Arzular könüldə...qılınclar qında...

O gündən Azərin gəlini, qızı,
Təpədən dırnağa geyindi qara.
Sakit səhərlərin o dan yıldızı,
Örtündü çarpaşıq, sıx buludlara.

Ömrünün ən əziz, məsum yaşında,
Satıldı qul kimi dediyim nigar.
Gecələr ağladı beşik başında,
Dilindən düşmədi dərdli laylalar.

O uşaq saxladı, o inək sağdı,
Gedib su daşıdı belində sənək.
Boranlar, çovğunlar üstünə yağdı,
Gözüylə dünyada odlar görərək.

Yayda xırman döydü dalında uşaq,
Gözündən od çıxdı, başından tüstü.
Dinib danışmadı ağzında yaşmaq,
Baxtından incidi, baxtından küsdü.

## Dar ağacı

Bu qarlı dağlara sığındı Babək –
Azərin qəhrəman, yenilməz oğlu.
Ürəyi atəşlə, qisasla dolu...
Yalın qayalara sinə gərərək,
Azğın ərəblərlə durdu üz-üzə,
Oxlar quzğun kimi töküldü düzə.

"Mənəm bu torpağın qüvvəti, canı,
Yağılar almasın Azərbaycanı!
Bu yaşıl yaylalar öz vətənimdir,
Südünü əmdiyim ana mənimdir.
Mənimdir bu hava, bu su, bu torpaq,
Əlimdə tutduğum bu qanlı bayraq.
Mənimdir bu bahar, mənimdir bu qış
Bu quyruqlu öküz, bu torpaq, bu xış". –
Deyərək, qaldırdı Babək səsini,
Başına toplayıb öz dəstəsini,
Bu sıra dağları, dar keçidləri,
Vətən sevdasilə aşdı iləri.
Tutub yığın-yığın ac ərəblərdən
Arazda qərq etdi onları hərdən.
Yayıldı şöhrəti Azərbaycana...
İmamlar, amirlər dayandı cana,
O igid aslanın hər nərəsindən.
Ordular dağıldı onun səsindən,
Boyandı nizəsi, qılıncı qana.
Onun qüdrətini bilən hər ana,
Oğlunun adını çağırdı Babək.

Günlərin birində acı bir külək,
Arana gətirdi yaman bir xəbər:
– Yırtıcı gözlərlə qızmış ərəblər,
Qəhrəman Babəki tora saldılar,
Böyük bir ölkədən qisas aldılar...
Bu acı xəbəri axıdan Araz,



Axdı həzin-həzin ürəyində yas.
Analar saç yolub geyindi qara,
Yağılar at çapdı bizim dağlara.
Taladı ölkəni hərə bir yana,
Babəki aldılar Ərəbistana.
Ərəblər əsiri dar ağacından,
İntiqam eşqilə asdığı zaman,
O qanlı faciə adlanıldı dar,
Başını qumlara əydi xurmalar...
Dikildi göylərə Babəkin gözü,
Tarixdə qalmışdır onun son sözü:
"Mən ayaq altında qəhr olub gedən,
Günəşin altında qabıqdan çıxan,
Göylər tanrısını ziyarət edən,
– O qara heçliyin əlini sıxan,
Qullar dünyasının qardaş səsiyəm,
Bir yeni ilhamın nəşidəsiyəm...

Nədir həyatdakı bu ayrılıqlar?
Bir yanda göz yaşı... bir yanda sevda...
Deyin, təbiətdə ayrılıqmı var?
Günəşlə bir yerdə yaşardı dünya,
İnsanlar dost kimi əlbir olsaydı,
Məhəbbət, etiqad, yol bir olsaydı!

Nədir bu qırğınlar, qılınclar, qınlar?
Bir tərəf zindandır, bir tərəf saray...
Niçin qəfəslərdə sussun qadınlar?
Gözəl görünməzmi buludsuz bir ay?
Nədir həyatdakı bu pərdə, bu rəng?
Böylə bir aləmə qələm çəkərək,
Həyatı səslədim yeni bir günə,
Səsimə səs verdi sünbül dərənlər.
İnanmaz dünyanın göründüyünə
İşıqlı bir günə yol göstərənlər..."

Tarix! Açılsana bir varaq-varaq!
Xəyalım göyləri birdən yararaq
Bütün kainatı dolaşmaq istər.
Sənsə var-yoxunu şairə göstər!
Keçdiyim yollara şahidmi dağlar?
Torpağın altında neçə nizə var?
Mən könül vermədim o keçmiş günə...
Utanma sevgilim! Söylə köksünə
Taxılmış nə qədər matəm çələngi,
Nədəndir düzlərdə lalənin rəngi?
Danış gördüyünü Xəzər dəryası!
Nərdədir gördüyün qullar dünyası?
Azadlıq uğrunda ölənlər hanı?
Çılğın saraylarda gülənlər hanı?
Nələr gördüyünü danış da bir-bir.
Teymurləng, Çingizxan, İsgəndər Kəbir
Sənin sahilində at oynatdımı?
Quşlar da qorxudan yerə yatdımı?
Hədəfi oldunmu cahangirlərin?
Səhərin qoynunda doğan ülkərin
Rəngi boyandımı qızıl qanlara?
Ey ana torpağım! Ey əziz vətən!
Bilirəm, dünyada gözlərinlə sən
Nə odlar görmüsən! Bu bir həqiqət
Fəqət darılmamış sana təbiət!



## Füzulinin dərdi

*"Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım.*
*Oyadar xəlqi əfqanım, qara baxtım oyanmazmı?"*

(Füzuli)

Sən ey sevdalı sənətkar!
Səsində min şikayət var...
Duyanlar hər zaman ağlar.
Desəm, bir böhtan olmazmı?

Vuruldun hüsnü Leylaya,
Sığındın təbi valaya.
Nahaqdan düşmə sevdaya,
Gözün yaşlarla dolmazmı?

Xəyala qərq olub hərdən,
Zəhərləndin küləklərdən...
Vəfasız, daş ürəklərdən,
Könül rəncidə qalmazmı?

Nə odlar görmüsən bilsən!
Əzəldən aşiq oldun sən.
Böyük ruhunla bir türksən
Muradın şəmi yanmazmı?

Füzuli! İncidin yardan,
Gileyləndin saraylardan...
Keçərkən karvanın qardan,
Dedin, üz döndərən yazmı?

Səninlə oynadı dövran,
Doyunca öpmədim yardan.
Əsən sevdalı rüzgardan,
Tənəffüs ruha sığmazmı?

Nədir Leyli? Nədir Məcnun?
Nədir aşiq? Nədir məftun?
Gəzirsən daima məhzun,
Sınıq qəlbin sınıq sazmı?

Yıxılmış gördüyün dövran,
Dəyişmiş, şairim! İnsan...
Azərbaycan! Azərbaycan!
Böyük dahilərin azmı?

Sən ey sevdalı sənətkar!
Səsində min şikayət var...
Duyanlar hər zaman ağlar
Desəm, bir böhtan olmazmı?



## Qız qayası

Düşündürür məni bu sirli diyar,
Onda həqiqətlər, əfsanələr var.
Ürəklərdə axın, qollarda qüvvət,
Burda öz-özünə gülür təbiət.
Burda çiçəklərin, quşların dəmi
Burda könüllərin əski həmdəmi...
Dumanlar içində duran hər qaya
Göz vurur günəşə, söz verir Aya.
Dağların döşündən gedən cığırlar,
Qalmış babalardan bizə yadigar.
Başını göylərə vurur "Şah dağı",
Alınır aləmdə onun sorağı...
Döşündə qaynayan soyuq bulaqlar,
Dilsiz əsrlərə xatirə saxlar.
Şair! Bu yerləri ayağınla gəz!
Gəncənin üstündə haçadil Kəpəz
Deyilmi dünyanın tanrı gözəli?!
Onu bəzəmişdir xilqətin əli.
Dağların döşündə durur Qarabağ,
Xəyalı gəzdirir hər dərə, hər dağ,
Züy tutur gecələr suların səsi,
Burda çobanların zil şikəstəsi
Hər keçən yolçunu saxlayır yoldan
Çatır qaşlarını heyrətlə insan.
Ormanlar içində İsa bulağı
Ondan əskilməyir insan ayağı.
Suyu almas kimi, göz kimi parlaq,
Qoynunda bəsləyir bu qara torpaq.

Mən də həyatımın azad yaşında,
Sizə söylədiyim bulaq başında,
Süfrəmi açmışam, kabab yemişəm,
Baxıb gözəllərə şeir demişəm.
O vaxt əsərlərmi ağlamış fəqət,
Könlümə sığmamış qoca təbiət.
Alıb sorağını ötüb keçəndən,

Gizli bir ilhamın xəyalıyla mən,
Ahımı salmışam boş dərələrə,
Küsmüşəm o gözəl mənzərələrə.
Sən ey gəncliyimin o ilk çağları!
Sən ey karvanımı qüruba sarı
Aparmaq istəyən cilovsuz külək!
Ey dağılan xəyal, yıxılan yürək!
Bəlkə, görüşmədik bir də dünyada...
Arabir sizləri gətirib yada
Keçdiyim yollara baxıb gülürəm...
Nələr çəkdiyimi indi bilirəm.

Mən Cıdır düzünü gördüyüm zaman
Keçmişəm gecələr Çanaq qaladan.
Orda dinləmişəm bir qız səsini,
Bülbülün Qarabağ şikəstəsini.
Bir yanda tar səsi, bir yanda qaval
Bükmüşdür boynunu dağlarda maral.
Çıxmışam dağların göy yaxasına
Doyunca baxmışam Qız qayasına
Orda saqqalına yaş dama-dama
Əfsanə söyləmiş bir qoca mana:

– Oğul! Bu dünyanın qocadır yaşı
Görürsən, dağların ağarmış başı.
Uşaqsan, körpəsən, doğrudan da, sən,
Böyükdür dünyanın başından keçən.
Bu şəhər adlanır Şuşa qalası,
Torpağın qarğışı, göyün bəlası
Hər zaman bu yerin üstünə yağmış
Qışında bahar var, baharında qış.
Mənim görmədiyim əski bir zaman
Burda sarayların ağası bir xan
Sarı yağ içində üzüb yaşarmış
Onun əsirləri, qulları varmış.
O xanın oylağı hərəmxanalar
Ardınca qarğarmış onun analar.



Günlərin birində xan çıxmış ova
Bu Ceyran düzündə at qova-qova
Atını saxlamış bulaq başında.
Kim bilir o zaman neçə yaşında
Növrəstə bir qızı bəyənmiş də xan
Ayırmış tərlanı öz yuvasından...
Saxlamış sarayda o qızı bir qış
Qız yolub saçını təslim olmamış.
Onun taleyinin sonuna bir bax:
Bir axşam gecədən oğurlanaraq
Şəhər kənarına qaçır da pünhan
Lakin arxasınca adam salır xan.
Həyata son dəfə yumub gözünü,
Qızcığaz qayadan atır özünü.
Fəqət deyirlər ki, altdan yuxarı
Qabartmış donunu dağlar rüzgarı,
Qızcığaz ölməyib, sağ düşmüş yerə
Yayılmış bu xəbər bütün ellərə.
Budur! "Qız qayası" adlanmış qaya,
Sirrini verməmiş yıldıza, aya".

İxtiyar sözünü bitirən zaman
Buludlar töküldü qaş-qabağından.
Ey ana torpağı! Ey əziz vətən!
Bilirəm dünyada gözlərinlə sən
Nə odlar görmüsən! Bu bir həqiqət,
Fəqət küsənməmiş sana təbiət!
Burda qurulacaq böyük saraylar
Baxıb küsənəcək yıldızlar, aylar.
Burda uzanacaq şose yolları,
Atacaq qolunu dağlara sarı.
Yolun kənarında çiçəklər, güllər
Gecəli-gündüzlü ötən bülbüllər
Burda oxuyacaq hər qəlbə vüsal,
Könül döyündükcə uçacaq xəyal.
Bu ağlı günlərə inanıram mən
Bu qoca dünyanın dörd tərəfindən
Elçilər gələcək bu doğma yurda,
Şairi dəfn edin o zaman burda!

## Şairin ölümü

İndi xəbər verim oxucuma mən,
Xəyalı küsdürən bir faciədən:
Qarabağ... Şuşada zəngin bir saray
Açılır qapısı örtülür lay-lay
Onun divarları al-əlvan naxış
Əsrdən əsrə hədiyyə qalmış.
Burda göstərilir qoşa ox atan
Burda göstərilir min bir pəhləvan
Qılınclar, nizələr, yumruqlu qollar
Döyüşən insanlar, ayrılan yollar...
Böyük bir ölkədən ilk yadigardır
Onun da sirli bir tarixi vardır.

Sarayda hökm edir ədalı bir xan,
Qan-qarğış tökülür qaş-qabağından.
Hər gün at belində dəliqanlıdır
Ürəyi fitnəli, əli qanlıdır.
Onun sarayında hərəmxanalar
Salınmış qəfəsə nazlı sonaları...
Ellər talan olur, vergilər ağır
Göylər cavabsızdır, buludlar sağır.
Yalnız səadətlə gülür bu saray
Açılır qapısı örtülür lay-lay.
Burda gün keçirir bir böyük şair
Yazır yazdığını həyata dair.
O şair məst edir daş sarayları
Bəlalı aşiqi, sevdalı yarı.
Baxıb durnaların yaşıl telinə
Ərməğan göndərir Bağdad elinə.
Bu sonsuz dərələr, qalın meşələr
Boynu bükük duran tər bənövşələr
Şairin sənəti, ilham ocağı
Ömrünün bəxtiyar və əziz çağı.
Bəzən xatırlayır Kür qırağını
Alır kəkliklərin ilk sorağını.



Şairin ilhamı gözəldir deyə,
Əzəldən aşiqdir o gözəlliyə.
Baxır kəlağaylı keçən gəlinə
Qarğı qələmini alır əlinə.
Könlünü bəsləmiş Azər elində
Deyir türküsünü ana dilində.
Səsinə səs verir dağda çobanlar
Bükür qamətini ağır zamanlar...
Sevir çəmənlərdə yarın seyrini
O böyük şairin hər bir şeyrini,
Deyir laylasında bizim analar,
Ölərmi yurdunu sevən sənətkar?

Vaqif! Ey qəlbimin köhnə sultanı!
De, söhbətin hanı, de, sazın hanı?
Susdumu türkülər danışan dilin?
Yasını tutdumu barı, sevgilin?
Sən ey buludların o ilk sarvanı!
Dondumu torpaqda şairin qanı?
Batdımı xəncəri xanın köksünə?
Nifrət o alçağa, nifrət o günə!
Noldu söylədiyin axar qəzəllər?
Andımı həsrətlə səni gözəllər?
Oldumu şahidin üfüqdəki ay?
Söylə, yıxıldımı o məğrur saray?
De, sənmi söylədin son dəfə naçar:
Bir yandan bağlayan, bir yandan açar.

Vaqif! Ey qəlbimin köhnə sultanı!
De, söhbətin hanı, de, sazın hanı?
Ey könül yolçusu gülər sənətkar!
Qədrini bilmədi sənin saraylar...
İran ordusunu yeridəndə sən
Dedin ki, yadlara keçməsin vətən!
Dedin, sərçeşmələr, dağlar bizimdir,
Almalı, armudlu bağlar bizimdir!
Böyük bir ölkəyə qanad gərərək

Dedin ki, türk dili, türk şeri gərək
Böyük bir ölkəyə qanad gərərək
Üfüqdən üfüqə çapsın atını.
Əziz bir ölkənin xatiratını,
Verməyək dağıdan, vuran əllərə
Küsənsin yer üzü bizim ellərə.
Yazıq! Sən deyəni demədi rüzgar...
Çəkdi ordusunu Məhəmməd Qacar –
Gözündə fırtına, baxışında qış,
O insan qatili, o axtalanmış...
Keçdi pəncəsinə onun Qarabağ
Qayalar titrədi əlində zağ-zağ.
Nişanlı qızların açıldı üzü,
Qaldı ürəyində Vaqifin sözü.
O qanlı günlərə şahid idin sən!
Divarlar töküldü güllə səsindən.
Naxışlı xalçalar, uzun xalılar,
Babalar yurdundan qalan yadigar
"Hədiyyə" verildi o yaramaza...
Sən də gördüyünü düz yaza-yaza
"Dünyada doğru bir halət görmədim
Bütün əyri gördüm, babət görmədim".

De, sənmi söylədin son dəfə naçar:
Bir yandan bağlayan, bir yandan açar?
Cinayət qatilə oturdu baha –
Yatıb sağ çıxmadı cəllad sabaha.
Qəhrəman bir oğul, polad bir ürək,
Onun otağına yalnız girərək,
Çaldı xəncərini xanın başından
Durdu matəminə cəlladın İran!
Səninsə qəlbinin əsdi telləri,
Yazdın Vidadiyə bu şad xəbəri.
O da həyatının ixtiyar yaşı,
Yönünü döndərib qibləyə qarşı,
Dilində surələr durdu namaza
Lənətlər oxudu o yaramaza.



Vaqif! Ey qəlbimin köhnə sultanı!
De, söhbətin hanı, de, sazın hanı?
Dəydimi xəncəri xanın köksünə?
Nifrət o alçağa, nifrət o günə!
Keçdi qərinələr, keçdi əsrlər,
Torpaqda qalmadı qullar, əsirlər...
Ey böyük sənətkar! Ey böyük insan!
Nə olar başını yerdən qaldırsan,
Kainat gözünə görünər röya,
İndi bambaşqadır gördüyün dünya.
Durulmuş, şairim, bulanıq sular,
Döyüşlər, mizraqlar, azğın ordular,
Saraylar əbədi torpağa dönmüş,
Məscidin şamları əriyib sönmüş.
Nə bir azan səsi, nə minarə var,
Nə də fırıldaqçı, azğın imamlar.
Dəyişmiş bu hava, dəyişmiş bu yer,
Odur, qalstuklu keçən pioner,
Açıb qarşısında külliyyatını
Öyrənir, şairim, o həyatını.
Onunla birlikdə uçur xəyalın:
"Ənliyi, kirşanı neylər camalın
Elə sən gözəlsən binadan pəri" –
Sözlərin olmuşdur dillər əzbəri.
Dolansan dünyanı sən qarış-qarış,
Tarix bir meydandır, həyat bir yarış.
Ölkəmiz yarışın ön səflərində,
Sürür karvanını sirri dərində...
Uçan buludlar da çağırır "Gəlin!"
Qalxacaq, şairim, bir gün heykəlin
İnsanlar qədrini bildiyi zaman
Gələcək sənətin, şerindir inan!

## Aslan və Mahniyar

Saray qızı Mahniyar,
Tanınmış diyar-diyar.
Ağ kəlağay başında,
Qız gəlinlik yaşında,
Nə çovğun görmüş, nə qar.
Onu öpüb salamlar
Günəşin ilk işığı;
"Bir elin yaraşığı" –
Söyləyirlərmiş ona.
Gündə ipək bir dona
Bəzənərmiş Mahniyar.
Yanında qulluqçular,
Bağçaları, bağları,
Bir az da uzaqları,
At belində gəzərmiş,
Yəhərini bəzərmiş,
Düzlərin laləsiylə;
Eşqin piyaləsiylə
Tanış deyilmiş o qız.
Bəzən də sadə, yalnız,
Sığınıb bir bucağa
Tüstülənən ocağa
Həzin-həzin baxarmış
Onun mənası varmış...

Qarabağdan, Şirvandan
Şahlar yurdu İrandan
Hey gələrmiş elçilər;
Nə sevgidən bir əsər
Nə insaf varmış onda,
Canlar ölmüş yolunda...
Ağ kəlağay başında
Qız gəlinlik yaşında
Hər gün çıxıb eyvana
Baxarmış dörd bir yana.
Süd kimi ağ bənizi
Onu Xəzər dənizi
Böyütmüşdür qoynunda,



Göz muncuğu boynunda
Döşündə zərli Quran,
Qaydadır babalardan –
Gözələ göz dəyməsin; –
Əsən yellər əyməsin
Boy atan bir çinarı...
Dağın soyuq rüzgarı
Soldurmasın o gülü.
Yoxsa onun bülbülü
Batar sonsuz qəmlərə
Can yaxan sitəmlərə. –

Xan qızıdır Mahniyar,
Odur ki şöhrəti var.
Daha dilbər, daha xoş
Yemişlər kimi meyxoş
Qızlarımızda varmış
"Böyüklər" almayarmış.
"Gəlin görək xan olsun,
Böyük ocaqdan olsun.
Quşu tutun yuvadan" –
Bir məsəlmiş o zaman.
Örkən, çatı toxuyan,
Üstü gərmə qoxuyan,
Qışın ayazlarında,
Boranında, qarında,
Çiynində yük daşıyan,
Daxmalarda yaşayan,
Gün altında ot biçən
Gölməlməlrdən su içən,
Qızlarımız da varmış –
Qocalıb qarıyarmış...

Xan sarayı ... Qocalmış,
Xanda nə qüvvə qalmış
Nə canında ixtiyar:
"Qızım! Gülüm! Mahniyar!
Göz dikdiyim bircə sən
Qocalmışam, görürsən.
Yoxdur əvvəlki halım,

Ağarmışdır saqqalım. –
Nə qolumda qüvvə var
Nə canımda ixtiyar.
Bax bu cəlal, bu saray
Yerdə həyat, göydə ay
Nəyim varsa, sənindir
Bakı öz vətənindir. –
Sana vəsiyyətim var;
Yurdumuzda knyazlar
At oynatmaq... Aman, ah!
Göstərməsin qoy Allah!
Suların zümzüməsi
Quranın tanrı səsi
Keçməsin yad əllərə.
Qızım! Bizim ellərə
Dünya kəsilmiş yağı
Cəlladların ayağı
Kəsilməmiş bu yerdən.
Oğul kimi vuruş sən,
Atıl incik gecəyə,
Vuruş pəncə-pəncəyə.
Ananın doğma yurdu,
Bax bu saray, bu ordu,
Tüfəng tutan bu əllər
Bəslədiyim pələnglər –
Nəyim varsa, sənindir,
Bakı öz vətənindir.
Sana yenə sözüm var:
Şöhrətli, şanlı xanlar,
Elçi göndərir sana,
Rəhmin gəlsin atana. –
Seç onların birini,
Həm də cahangirini.
Qoy qüvvəmiz çoxalsın,
Adım tarixdə qalsın.
Deməsinlər, bizim xan
Düşmanın qabağından
Qaçdı qoyunlar kimi".



"Düz deyirsən, atacan!
Bilirəm ki, atadan
Böyük dünyada nə var? –
deyə gözəl Mahniyar
Düşünərək arabir
Atasına söyləyir:
"Mən bir xan qızıyam, adım Mahniyar,
Ellər arasında şan-şöhrətim var.
Bu torpaq, bu hava, bu zəngin vətən –
Bunları duyduqca, düşündükcə mən,
Həyata, varlığa məftun oluram,
Çöllərin kralı məcnun oluram.
Bilirəm, sənin də taxtın, tacın var,
Gözünü dikmişdir ona yağılar...
Fəqət şöhrət üçün, xaniman üçün,
Qanlarla yoğurulan bir zaman üçün,
Qoparıb qəlbimi ata bilmərəm,
Çul kimi döşənib yata bilmərəm...
Çox da güvənməsin gücünə xanlar,
Mənim də qəlbim var, arzularım var.
Əlimdə tikdiyim bax bu ağ çuxa,
Hansı bir igidin əyninə olsa,
Bir də ağ atımı kim minə bilsə,
O, şah da deyilsə, xan da deyilsə,
Olsa da adi bir qapı nökəri,
Onundur qəlbimin gizli telləri...

Ay dolandı, il döndü,
Çox igidlər öyündü,
Güvəndi şöhrətinə,
Malına, dövlətinə
Göz dikdi Mahniyara.
Yayıldı hər diyara
Bir gün yeni bir xəbər:
– Dedilər ki, bir səhər,
Başlanacaq imtahan.
Hansı igid, qəhrəman,
Ağ atın üstə minsə,
Ağ çuxanı geyinsə,
Onunkudur Mahniyar.

Bu xəbəri alanlar
Şamaxıdan, Şəkidən,
Lənkərandan, Bakıdan,
Qarabağdan, Şirvandan,
Şahlar yurdu İrandan,
Bığıburma cavanlar
İgidlər, pəhləvanlar,
Bakıya üz tutdular.
Hey atdılar, tutdular –
Tüfəng tutan, ox atan,
Atın qarnında yatan,
Başı üstə mil duran,
Quşu dimdikdən vuran,
Suyu balıq kimi tən
Yarıb içindən keçən
Yığışıb dəstə-dəstə
Gəldi Bakının üstə.
Sədd çəkildi dörd yana
Ağ at gəldi meydana
Əvvəlcə lovğa bir xan
Ağ atın cilovundan
Tutub bir sillə vurdu.
O, atı qorxudurdu.
Deyirdi, altımda yat.
Cilovu dartaraq at
Qulağını şəklədi,
Əlilə təpiklədi
Xanın qarnını birdən,
Qışqırdılar dörd yerdən –
Yıxıldı torpağa xan.
O gəlmişdi İrandan,
Sonra bir dəliqanlı,
Gözləri həyəcanlı,
Ürəyində fırtına,
Atın yatdı sırtına.
Sıçradı birdən-birə,
Ağ at yataraq yerə.
Ağnadı, basdı bunu
Qan apardı burnunu.



Dağıstanlı pəhləvan
Yaxın gəldiyi zaman
Hamını heyrət aldı
Mahniyar da saraldı...
Tutub atın boynunu,
Burmaq istərkən onu,
Ağ at öz vərdişilə,
Kəmərindən dişilə
Yapışdı birdən-birə
Qaldırıb vurdu yerə.

Gəl, ey qaçaq Aslanım!
Gəl, ey qoçaq Aslanım!
Gəl ki, meydan sənindir,
Tülək tərlan sənindir.
Aslan gəlir çaparaq,
Ağ at qulaq qırparaq,
Tanıyır qəhrəmanı,
Deyir o, günlər hanı?
Aşıb, dağdan, dərədən,
Uçardın üstümdə sən.
Bir gün tora saldılar,
Məni səndən aldılar.
Gəl, ey qaçaq Aslanım!
Gəl, ey qoçaq Aslanım!
Gəl ki, meydan sənindir,
Tülək tərlan sənindir.

Aslan süzərək xanı,
Geyinir ağ çuxanı.
Qalxır atın belinə,
At sevinə-sevinə
Uçur düzdə quş kimi,
Dardan qurtulmuş kimi.
Sonra dönür geriyə,
O yeriyə-yeriyə,
Duranlara baş əyir,
Xanın kefinə dəyir.
Ki, üstün gəldi Aslan
Səs çıxmadı xanlardan...

Sevinərək Mahniyar,
Boylanır xumar-xumar.
Taleyindən küsüb xan,
Onun qaş-qabağından
Bulud yağır elə bil!
Çünki qaytaran deyil
Verdiyi vədəsini.
"Çölün bir gədəsini"
Çağıracaq kürəkən...

Deмək, bir səhər erkən,
Qovuşdu sevgililər.
Doğan ətirli səhər,
Öpdü-öpdü onları.
Dağların da ağ qarı
Hey əridi mum kimi.
Həyat bir zəqqum kimi
Görünürdü o xana.
İçindən yana-yana
Dedi: – Qızım! Mahniyar!
İndi nə muradın var?
Qaçaq Aslan sənindir,
Saray da vətənindir...
O gündən oxucum! Keçdi sənələr,
Keçdi bu dünyanın başından nələr!
Toplar guruldadı, saraylar yatdı,
Bunları insanın əli yaratdı.
Gəlinlər, qocalar, qızlar, qarılar,
Beşikdə çağalar, ömrü yarılar
Cidalar ucunda parçalandı hey,
Ellər dağıldı hey, talandı hey!
İnsanlar bezikib cana dayandı
Qurunun oduna höyüş də yandı...
Taladı elləri yırtıcı xanlar,
Günəşin altında göl kimi qanlar
Qaynaya-qaynaya buxara döndü,
Qapılar bağlandı, ocaqlar söndü. –
Ay da, buludlar da gizlənib yatdı,
Bunları insanın əli yaratdı.



Günlərin birində əsən küləklər
Gətirdi Bakıya acı bir xəbər:
"Bakının şöhrəti Hüseynqulu xan
Səhər yuxusundan ayılan zaman
Bütün dövlətini, bütün varını,
Şəhər qalasının öz açarını
Knyaz Sisyanova təslim verməli!
Yoxsa... Rusiyanın dağıdan əli
Böyük bir ölkəni yandıracaqdır.
Yerdə padşahların dediyi haqdır!"

Başına and içir Sisyanovun çar
Yorğun piyadalar, atlı ordular
Daşınır gecələr Qafqaza sarı
Darğın bir ölkənin qara qaşları
Sıxılmış yay kimi, kinlərlə dolu
Gözləyir yağının gəldiyi yolu.
Sisyanov – o döşü medallı knyaz
O alçaq, o cəngli, cidallı knyaz.
Çarın sədaqətli, yaxın nökəri,
At üstündə qılınc çəkəndən bəri,
Yayılmış şöhrəti bütün Qafqaza,
Rus güvənir məğrur knyaza.
Çocuqkən əmərək gürcü südünü,
Dinləmiş dağların hər öyüdünü.

Almış sifarişi Hüseynqulu xan
İldırım tökülür qaş-qabağından.
Qolları qüvvəsiz, ömrü ixtiyar,
Oynayır gözündə qara buludlar.
Düşünür gecəni sabaha qədər,
Ağarır dan yeri, açılır səhər.
Oynayır Xəzərdə işığı günün,
Böyükdür tarixdə dərdi o günün.

Knyazın ordusu yetişib həmən,
Bürümüş şəhəri dörd tərəfindən.
Xansa fikirlərə qərq olub naçar,
Sorur nökərlərdən hardadır açar?
Aparın, aparın, verin knyaza,

Güvənsin Rusiya böyük Qafqaza...
Selin qarşısını almaq olarmı?
Tüfəngli çıxmağın mənası varmı?
Özünü irəli verərək Aslan
Deyir: – Qoy açarı mən aparım, xan!
Xansa qəzəblənib bağırır:
– Apar!
Əl çalıb oynasın gələn ordular...
Knyazın başında bir qara dəstə,
Gəlir yavaş-yavaş sarayın üstə.
Durur salamına saraydakılar
(Öyünmə! Gecənin gündüzü də var...)
Aslan qarşılayır onları "naçar"...
Knyaza baş əyir əlində açar,
Qırılır qəlbində sədəfli bir saz.
Başını dik tutan o məğrur knyaz: –
"Sadiq nökərinə şöhrətli çarın
Knyaz Sisyanovdan salam aparın!"
Deyərək açara qürurla baxır...
Aslanın başından tüstülər qalxır.
Qan vurur beyninə, sıçrayır birdən,
Açarı knyaza təslim edərkən
Çalır xəncərini onun köksünə
Alqış tarixdəki o şanlı günə!
Al! – deyir, – payını, soruşma nədir?
Çara, "nökərindən" ilk hədiyyədir...

Döşü medallı knyaz
Cəngli, cidalı knyaz
Boyanmışdır al qana.
Salam Azərbaycana!
Gələn o qara bulud,
Ölüm rəngli o tabut
Artıq çəkildi yoxa.
Bizim Ağ at, ağ çuxa.
Halal olsun Aslana!
Onu böyüdən ana
Dağların maralıdır
Sorsanız haralıdır?
Salam Azərbaycana!



Boyanmışdır al qana
Döşü medallı knyaz
Cəngili, cidalı knyaz.

Tez yayılır bu xəbər,
Qaçır dünən gələnlər.
Aylıq yolu bir gündə,
Axır suyun üzündə.
Kaqartlı göy şapqalar
Gecənin gündüzü var...
Qaçır çar orduları
Gilavarın rüzgarı
Toz qaldırır göylərə,
Seçilməyir dağ-dərə. –
Amansızdır küləklər
Qalır topları, tüfənglər
Qurşunlar, dinamitlər
Sarı paqon zabitlər
Qucaqlayıb suları,
Qaçır şimala sarı...

O gündən oxucum! Keçdi sənələr,
Keçdi bu dünyanın başından nələr! –
Çarın orduları ikinci dəfə
Hücuma başladı Bakı tərəfə:

Gecə sakit, gecə lal
Gecə qərib bir xəyal...
Qaralmış pəncərələr
Kiçik dağlar, dərələr
Qara sükuta dalmış
Elə bil ki qocalmış
Bu yerlərdə təbiət...
Xəzər dinməyir əvət!
O da sakit, o da lal
Gecə qərib bir xəyal...
Xan sarayı pərişan,
Nə işıqdan bir nişan,
Nə günəşdən soraq var.
Yatır saraydakılar...

Arabir ixtiyar xan,
Ayılır yuxusundan.
Dilində bir soyuq ah
Ya da "Ey böyük allah!"
Yenə yuxuya gedir.
Bu aləmi tərk edir.
Yatır gəlin Mahniyar
Nə gözəl görkəmi var
Gözəllərin yuxuda!
Bir ölümdür yuxu da...
Şəhərdə yoxdur Aslan
Verəcəkdir yurdu xan.
Gecənin qəlbi qara,
Gecəni yara-yara
Gəlir səssiz ordular
Gecənin vicdanı dar...
Nə yıldız var, nə də ay
Yuxuya getmiş saray.
Ordu dolur şəhərə
Az qalmışdır səhərə.

Başlanılır vurhavur
Al payını! Qaçma! Dur!
Şarak – Şarak – Şara – rak
Güllələr şığıyaraq,
Dolur pəncərələrdən.
Cavab gəlirsə hərdən
Müqabil qüvvə yoxdur.
Qaçanlar daha çoxdur.

Tez oyanır Mahniyar
Gözündə fırtınalar
Görür saray od almış.
Nə bir köməkçi qalmış,
Nə Aslandan bir xəbər.
Birdən qopan küləklər
Xəbər verir Aslana.
O sınanmış aslana
Ağ at uçur quş kimi
Dardan qurtulmuş kimi.



Qızı görür "qonaqlar" ...
Şahin kimi Mahniyar
Atılır pəncərədən,
Alovlar uda-uda...
Onu tutur havada
Mehriban güclü bir əl
Deyir ki, Aslanam, gəl!
Aman Ağ at! Can Ağ at!
Gah sıçra, gah yerə yat!
Bizi vermə düşmənə
Apar çıxar bir yana.
Ağ at gedir çaparaq
Nalından od qoparaq
Arxasınca ordular...
Hər tərəfdə ölüm var,
Havadan qurşun yağır,
Hava qurşundan ağır.
Bu düzlərdə Ağ at tək
Keçdiyi yol daş, kəsək
Heyrət o qanlı günə!
Bir qayanın üstünə
Gəlib çıxdı bizim at.
Üstündə iki həyat
İki duyğu, iki qan...
Dənizin dalğasından
Sahillər zağ-zağ əsir,
Qaya əsir, dağ əsir
Qabaq – dibsiz qara su,
Arxa – düşmən ordusu.
Laçın kimi Mahniyar
Gözündə fırtınalar
Deyir: – Aslan! Əzizim!
Son günümüzdür bizim.
Düşmənlər gördü bizi
Tutub hər ikimizi
Zindanlara salacaq,
Kim ölüb, kim qalacaq?
Dözməkdənsə bu dərdə,
Namusumuz əllərdə,

Didilməsin aman! Ah!
Dəniz bizə son pənah...
Sür Ağ atı dənizə
Dəniz anadır bizə.
Udsun bizi dalğalar! –
deyə, gəlin Mahniyar
Göz gəzdirir son dəfə
Günəş doğan tərəfə... –

"Aman Ağ at, can Ağ at!
Dənizin qoynuna yat.
Bizi verme düşmənə!"
Bir ruh gəldi Aslana.
Öpərək Mahniyarı,
Vurdu dənizə sarı
Atını dik qayadan.
Ağ at sıçradı əlan
Köpüklü dalğalara;
Suları yara-yara
Azacıq qol atdılar,
Gözdən itib batdılar.
Bu qanlı dəryalarda
Tufanlı dəryalarda.

O gündən titrədi yurdun üstündə,
Cütbaşlı qartalın qanlı bayrağı.
Tarixin doğduğu o qara gündə,
Böyük bir ölkənin söndü çırağı.

O gündən göründü sarı paqonlar,
Boşaldı kəndçinin dolu xırmanı.
Elləri qurd kimi taladı onlar,
Dedilər, padşahın sağ olsun canı!

O gündən ağladı aşığın sazı,
Dilində can yaxan dərdli haraylar.
Uçan durnaların küskün avazı
Ötdükcə dinmədi, yıldızlar, aylar.
Buludlar çaxnaşdı, hava daraldı,



Çumalar dolaşdı bizim elləri.
Bizim ipəkləri Peterburq aldı,
Bəzəndi knyazın madmazelləri!

O gündən saraldı yaşıl təbiət,
Axdı həzin-həzin Kür çayı, Araz.
Baş əydi qanuna kitab, şəriət,
Ürəklərdə zədə, baxışlarda yas.
Tər içdi, qan uddu motalpapaqlar,
Son dana, son çuval getdi vergiyə...
Bağlandı qapılar, söndü ocaqlar,
Qarılar, qocalar yalvardı göyə...

Çəkdi qamçısını azğın mülkədar
"Ver" – dedi, "ver" – dedi, – çıxar belindən!
Göydə bir allahdır, yerdəsə bir çar,
Qabarlar tökülsün sənin əlindən!

Satdı mənliyini "əsilzadələr",
Çarın xidmətinə baş əydi quran.
Bütün gördüyümü danışsam əgər,
Kağızım qurtarar, yorular insan.

Yüz il biz ayrıldıq ana dilindən,
Məktəbin adına dedik "uşkola".
Oxucum! Bir daha nəzər yetir sən,
Keçdiyin o qanlı, o qorxunc yola.

Yüz il Füzuliyə həsrət qalaraq ,
Doğma analara söylədik "mama".
Yüz illik yuxuya birdən dalaraq,
Yatdıq gözümüzdən yaş dama-dama.

Yüz il nəfəsini çəkə bilmədi,
Şairlər oylağı böyük bir ölkə
Yüz il öz qolunu çəkə bilmədi...
Tarix! Səninkidir bu qara ləkə!
Axdı Rusiyaya neft kəmərləri,
Daşıdı onları ilk dəmir yolu...

Tarixə hökm edən o gündən bəri,
Çalışdı yadlara Azərin oğlu.

O gündən qaraldı göydə buludlar,
Bir günəş doğmadı Azərbaycana.
O gündən saraldı çiçəklər, otlar
Gəmimiz çıxmadı varıb bir yana...

Sən ey Rusiyanın dağıdan əli!
Cütbaşlı qartalın qanlı heykəli!
Əsrlər dolandı günlər aşaraq,
İndi məclisimə, kefimə bir bax:

Mənimdir dünyanın yar-yaraşığı
Mənimdir gecənin məhtab işığı
Mənimdir bu hava, bu torpaq, bu su,
Mənimdir yurdumun qızıl ordusu.

Əlimdə tutduğum bu qızıl bayraq,
Bu pambıq tarlası, bu qara torpaq.
Mənimdir dillərdə internasional
Döyünən bir könül, uçan bir xəyal...

Düşüncələr yeni, duyğular yeni
Mənimdir Leninin qızıl ordeni
Mənimdir bu günəş, bu ay, bu hava
Bax bu qızıl Bakı, qızıl Moskva
Bir cüt oğul kimi gedir yanaşı
Gedir karvanımız günəşə qarşı!



## Acı xatirələr

Yenə ixtiyarsız düşdü yadıma,
Ömrün unudulmuş əziz günləri.
İçimdə bir bülbül ötür daima
Bir də qayıtmadı o gündən bəri
Ömrün unudulmuş əziz günləri.

Ey əziz oxucum! Ey böyük insan!
Çocuqluq nə qədər gülünc olsa da,
Könül ayrılmayır duyğularından
Onları dəmbədəm gətirir yada
Çocuqluq nə qədər gülünc olsa da.

Yaxşı yadımdadır doqquz yaşımda,
Ağacdan qotazlı bir at mindiyim.
Aranda, yaylaqda sular başında
Ağır danışdığım, ağır dindiyim
Ağacdan qotazlı bir at mindiyim.

Bu dünya sonsuzdur, insanlar da çox,
Hər elin, hər günün öz adəti var.
Bunları yazmağa canda qüdrət yox
Səsimə səs versin məni duyanlar,
Hər elin, hər günün öz adəti var.

Bir dəstə çocuqduq qonşuluqda biz,
Bir gəzib, bir durub, bir oturardıq.
Bizə toxunmazdı böyüklərimiz
Gündə bir qapıda məclis qurardıq
Bir gəzib, bir durub, bir oturardıq.

Dəmir barmaqlara soxulcan taxıb,
Kürün sahilində balıq tutardıq.
Bəzən də yuxudan yarımçıq qalxıb,
Aylı gecələrdə sümük atardıq.
Yaylıqla bağlayıb gözlərimizi

Arayıb, axtarıb tapardıq onu.
Nə tez tərk elədi o günlər bizi
Dəyişdi, sevgilim, dünyanın sonu.

Gələndə hər bahar Novruz bayramı,
Hərənin başında bir keçə papaq
Düşüb qapılara gəzərdi hamı
Hər çıxan tüstüdən bir pay umaraq.

Yığıb çantalara yerdən-yemişdən,
Yolda gah yüyürüb, gah ötüşərdik.
Sonra yuvamıza dönüncə həmən,
Çul kimi döşənib yorğun düşərdik.

Bəzən təbiəti biz sevə-sevə,
Yemlik düşürərdik qara torpaqdan.
Camışlar belində dönərdik evə,
Axşam qaranlığı düşdüyü zaman.

Sizə xoş gəlirmi bu əyləncələr,
Könül duyduğunu xəyal seyr edər,
Gəlir xatirimə qərib bir axşam
Durnalar başımın üstdən keçəndə.

Yanıb əriyirdi evinizdə şam.
Onlara quş kimi qoşulub mən də
Ən uzaq ellərə uçmaq istədim,
Evdən baş götürüb qaçmaq istədim.

İnsan qanadsızdır, çatıb qaşımı,
İlk dəfə muradı gözündə qaldım.
Anamın dizinə qoyub başımı,
Xəyallar içində yuxuya daldım.

Qurban bayramıydı gülürdü dağlar,
Qonşumuz xınalı bir erkək kəsdi.
O bayram günündə anamı ağlar,
Görəndə üstümdən bir çovğun əsdi.



Atam oturmuşdu qapımızda tək,
Ömrünün ixtiyar və düşkün çağı.
Zoğal müştüyünü tüstülədərək,
Yenə tökülmüşdü qaşı, qabağı.

Nəydi düşündürən o yazıqları?
Evdə nə tüstü var, nə isti qazan –
Pozulmuş daima haqqın ilqarı,
Deyin, yanılmasın tarixi yazan!

Bir tərəfdə düyün, bir tərəfdə yas,
Böylə keçinmişdir dilsiz əsrlər.
Şairim! Könülün dediyini yaz,
Odur bu dünyada ən böyük əsər.

O gün qonşumuz oğlu başına,
Qoymuşdu bir qara buxara papaq.
Vüqarı sığmazdı çocuq yaşına,
Yanımdan keçirdi tərs-tərs baxaraq.

Mənsə sallamışdım yerə burnumu,
Baxıb köynəyimin yamaqlığıma.
Deyirdim, dünyanın vəfası bumu,
Hamını almayır öz qılığına.

Uşaq əziz gündə sınmasın deyə,
Anam öz cehizi, yorğan üzündən,
Mənə üst köynəyi tikdi hədiyyə,
Mən də iki dəfə öpdüm üzündən.

Ah mehriban ana, ah əziz ana!
O gündən bəridir həsrətəm sana.
Günlər boy atdıqca mən də boy atdım,
Gəlib yetişmişdim on üç yaşıma,
On üç qış keçirib bahara çatdım,
Bir qara faciə gəldi başıma.

Bir dolaşam vardı, tükləri yumşaq,
Tumarlardım onun qanadlarını.
O yavru quşcuğaz, mən də bir uşaq
Gəzərdi göylərin üst qatlarını.

Bəzən öz əlimlə uçurub onu,
Baxardım ardınca uzaq göylərə.
Seyr edib havanın göy boşluğunu,
Birdən şığıyardı uçduğu yerə.

Meylimi salmışdım o quşcuğaza,
O da ayrılmazdı mənim yanımdan.
Tutardım arabir söhbətə, saza,
Əziz saxlayardım onu canımdan.

Ağzımda çörəyi çeynəyib bəzən,
Xırdaca-xırdaca yemlərdim onu.
O aciz heyvanı bəslədikcə mən,
Bilməzdim, axrının heç olduğunu.

Bir sabah nə gördüm? Yazıq quşcuğaz,
Yoxa çəkilmişdir damın üstündən.
Mahir və sınaqlı bir ovçu kimi,
Düşdüm sorağına onun o gündən.

Üç gecə yatmadım, üç gün ağladım,
Gəzib dəymədiyim qapı qalmadı.
Dolaşdım bir kəndi mən addım-addım,
Neyləyim? Mən deyən yenə olmadı.

Umudum kəsildi, əlim üzüldü,
Məni tək buraxdı o əziz sirdaş.
Nə könlüm açıldı, nə üzüm güldü,
Bir axşam yenə də gözlərimdə yaş.
Gəzirdim qapıda dodaq büzərək,
Bir paya başından uçdu quşcuğaz.
Hava dalğasında qanad süzərək,
Gəlib sol çiynimə düşdü quşcuğaz.



Gözlərim yaşardı sevindiyimdən,
Elə bil üstümdən dağ götürüldü.
Anam bir muştuluq istədi məndən,
Deyəsən, atam da qımışıb güldü.

Bunun arxasınca keçmədən bir az,
Gəldi qonşumuzun uşağı Niyaz;
Yanında üç nəfər, bir qara tazı
Qorxudan sığındı mənə quşcuğaz.

"Dolaşa bizimdir, qaytarın geri!"
Gözümdən od çıxdı, başımdan tüstü.
Yapışdım çomağa: "Çəkilin geri!"
Yoxsa qan elərəm bu axşamüstü".

Qızışdı get-gedə, qarışdı ara,
Artıq itirmişdi döyən-döyəni.
Burnumun üstündən aldığım yara,
Çul kimi torpağa sərmişdi məni.

Birdən bir vığıltı eşitdim də mən,
Gördüm, çapalayır yazıq quşcuğaz.
Ara qarışanda yönəlib həmən,
Quşcuğun başını qoparmış Niyaz.

Ah! İnsafsız adam, vicdanın hanı?
Günahı varmıdır dilsiz heyvanın.
Xəyalım dolandı bütün dünyanı
Nəyə qıymamışdır əli insanın!

Quşun ayaqları eşir torpağı,
Başı bir tərəfdə, dimdiyində qan.
Quşun qanadları xəzan yarpağı,
Sərilmiş torpağa qırıldığından.

Arabir ağzını açaraq asta,
Sanki "qisasımı al" deyir mənə.
Şirin yox olmuşdur, Fərhadı yasda
Külüngü dağlara çal deyir mənə.

Çocuq xəyalımda dolanır sular,
Gözlərim qaralır həyəcanımdan.
Ah sınan könüllər, sönən arzular,
Dumanlar, tüstülər çıxır canımdan.

Dolandı həftələr, dolandı aylar,
Titrədi, sönmədi qəlbimin kini.
Çocuqda ölçüsüz bir inad da var,
Açıb söyləmədim qəlbimdəkini.

Keçdi fürsətimə günün birində,
Mənim gözlədiyim o qarı düşmən.
Ceyranlar düzündə, ovlaq yerində
Sürüşmək istərkən mənim yanımdan.
Başını dörd yerdən yardım çomaqla,
Dedim, qüdrətimi yadında saxla.

Sonra fəth eləmiş ordular kimi,
Çomağım çiynimdə yola düzəldim.
Əsdim çovğun kimi, yağdım qar kimi,
Anamın yanına namusla gəldim.

Fəqət, əskilməyir yenə inadım,
Qorxulu xəyallar keçir başımdan.
Elə bil sınmışdır qolum, qanadım,
Mən ayrı düşmüşəm öz sirdaşımdan.

Quşcuğaz məni tərk edəndən bəri,
Könül həsrətilə çox ağlamışdır.
Quşcuğaz dünyadan gedəndən bəri,
Qəlbim zənginlərə kin bağlamışdır.

O gündən bəridir görmədim onu,
Bambaşqa tarixlər keçdi başımdan...
Dəyişdi dünyanın əvvəlki donu,
Ayrıldım get-gedə çocuq yaşımdan.



Ölkələr dolandım, şəhərlər gördüm,
Dənizdən dənizə çapdım gəmini.
Mən ağlı-qaralı dövranlar sürdüm,
Sizə xəbər verim son həmdəmimi.

Vuruldum o gün ki, şeirə, sənətə,
Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə,
Əlim qələm tutub yazandan bəri.

Bəzən xəyalımda gəzir buludlar,
Bir damcı böyüyüb, bir dəniz olur.
Dünyanın ölməyən bir qanunu var,
Bir yandan boşalır, bir yandan dolur.

Mənsə bu varlığın içində qaynar,
Bir vulkan kimiyəm, gözlərimə bax!
Könül tərlan kimi baş alıb oynar,
Buluddan buluda qanad çalaraq.

İnsanlar dost kimi oxuyur məni,
Sözüm ağızlarda əzbər çəkilir.
Əlimlə qurduğum sənət bağında,
Ətirli lalələr, güllər əkilir.

Öylə səfərbərəm, öylə hazıram
Qarşımda diz çöküb, göylər alçalır.
Bir yanda kağıza mən söz yazıram,
Bir yanda sevgilim piano çalır.

Ömrümün bu əziz günlərində mən,
Düz otuz yaşıma girirəm bu yaz.
Fəqət, xəyalımın önünə bəzən,
Gəlir yazıq anam, bir də quşcuğaz.

## Üsyan və Quran

Yanır qəribanə kənd axşamları
Titrək işıqlarla məscid şamları.
Birisi minbərdə əlində Quran
Vədələr söyləyir "böyük tanrıdan".
Torpağın sinəsi yarıq-yarıqdır
Əkinçi ixtiyar, öküz arıqdır...

Havada mığ-mığı çalır insanı,
Dönüb zəhərlənir insanın qanı.
Sonra üşütmələr canını kəsir,
Xəstə uşaqların ayağı əsir.
Boğazlar qurumuş, sap kimi incə,
Qulaqlar yeni bir səs eşidincə
Dolanır həftələr, dolanır illər...
Durur yol üstündə aclar, əlillər.
Birisi minbərdə əlində Quran
Vədələr söyləyir "böyük tanrıdan..."

İnsanın üzünə düşəndə yara,
Kitablar açdırır gedib cindara.
Gəzir qapılarda falçı qadınlar,
Bəşər taleyini həll edir onlar...
Analar ömrünün dolu yaşında
Əyləşib gecələr beşik başında,
Həzin laylalara tökür dərdini...

Aclıq – çəkilmişdir göylərə çörək,
Susuzluq – quruyur bağlarda tənək.
Gölmə sularının rəngi sapsarı,
Xəstəlik çürüdür ağaclıqları.
Dərin bir sükuta dalır təbiət,
Beləydi, sevgilim bizim əski kənd.

Acından qapıda sümsünür itlər
Budur! Türkiyədən gələn zabitlər
Ağır zopalarla döyür insanı
Qarışır ağzının, burnunun qanı.



Hər axşam bir evə dolur qaçaqlar,
Yorğanı başına çəkir uşaqlar.
Tövlədə xəflənib, kişnəyir atlar
Qorxub uşaq salır həmlə arvadlar.
Nə qanun, nə nizam, nə də mərhəmət,
Beləydi, sevgilim, bizim əski kənd.

Döyür hər qapını bir acı rüzgar,
Döyür hər qapını ölüm və azar.
Həyat parçalanır boranda, qarda,
Meyitlər daşınır arabalarda...
Göy də zəhərlənmiş, pozulmuş hava,
Yerdə nə dərman var, nə də bir dava.
Odur bax! Uzaqdan gələn bayatı,
Ağladır yuxuda bizim elatı.
Ağlayır döşündə aşığın sazı,
Uçan durnaların küskün avazı.
Ağlayır gecənin yalnız sarvanı,
O ellər dünyası, ellər karvanı.
Taxıllar od tutur, boş qalır anbar,
Çiçəklər saralır, solur yoncalar.
Sürülür bazara bizim son inək,
Kəndçinin qapısı bağlanır, demək...
Quldurlar şığıyıb bir qalın koldan
İnəyi ayırıb aparır yoldan.
Kəndçi də söylənir: "Ədalət hanı?"
Yanıb tüstülənir ağac qəlyanı.
Xəyali pəjmürdə, siması ağlar,
Yolunu gözləyir evdə uşaqlar.
Evdə nə tüstü var, nə çay, nə də qənd,
Beləydi, sevgilim, bizim əski kənd.

Gətir xəyalına süslü bir bina
Daima şadlanır yarandığına.
Önündə bağçalar, bağlar salınmış
Torpağı "qanunla"- zorla alınmış.
Hər daşı bir dağdan beldə daşınmış,
Burda bahar gülür, sezilməyir qış.
Burda qoyulmayır qılınclar qına,

Sizə söylədiyim bu məğrur bina
Fəxr edir, oynayır yaraşığıyla
Yuyunur günəşin ilk işığıyla.
Düşmən təbiət də oxşayır onu.
Süslü otaqları, böyük salonu
Bəzənmiş baharın ilk güllərilə
Oyanır səhərin bülbüllərilə.
Balkonu gül-çiçək, yamyaşıl yarpaq,
Asılmış qapıdan üçrəngli bayraq...
Salonda, bir baxın, görün nələr var
Taxta döşəməsi seçmə xalçalar,
Vurulmuş divara uzun bir xalı
Sancılmış üstünə bəyin xançalı,
Onun da üstündə qanlı bir qəmə
(İnansın pioner dediklərimə)
Yanır lalə kimi xalının rəngi
Xançalın yanında bir rus tüfəngi
Taxılmış üstünə altı patron daş
Silir tozlarını hər gün qarabaş.
Onların yanında yağlı bir naqan
Onun da altında zağlı onatan
Rəssamın qurduğu sərgiyə bir bax!
Asılmış qapıdan üçrəngli bayraq.

Burdakı Elxandır – elin koxası,
Əynində vəznəli yaşıl çuxası.
Gözünün üstündə buxara papaq,
Əntərə bənzəyir o kor yapalaq;
Gözləri gömgöydür, sifəti sarı.
Bildirir üzünün sıx çopurları.
Ayrıdır Elxanın aranı, dağı
Nə çoxdur ilxısı, bostanı, bağı.

Bordaxda saxlanır minik atları
"Bərayi-ehtiyat" pulemyotları...
Tüyürdə bəslənir iki qızıl quş
Ovçuluq Elxana bir adət olmuş.
Azad dünyasında ağ günlər görür,
Xoruz dalaşdırır, qoç döyüşdürür.



Tutub mədəsini südə, qaymağa,
Ağalıq eləyir yeddi oymağa.
Onundur bu hava, bu su, bu torpaq,
Asılmış qapıdan üçrəngli bayraq...

Bu axşam Elxanın kef məclisi var,
Hay vurur, qıy vurur gələn qonaqlar.
Elxanın sağ əli – qoçu Daşdəmir
Ağzında yağlı bir sümük gəmirir.
Qarışmış ağzına yağlı bığları,
Tökülür gözünün sarı zığları.
Başqa birisinin qaynayır qanı
Yerindən sıçrayıb çəkir naqanı:
"And olsun başına, əzizim, Elxan!
Nə qədər mən sağam, durur bu naqan.
Arxayın yaşa ki, ağ günlər görək
Gəlib məclisində dövranlar sürək"
"Mən olan yerdə sən qoduqlanma gəl
Açarsan başına sonra bir əngəl.
Mənəm ağamızın sadiq nökəri
Onunla duz-çörək kəsəndən bəri" –
Acıqlı bir səslə dinir Daşdəmir,
Ağzında yağlı bir sümük gəmirir...

– Sağ olun! Var olun! Sizinəm mən də,
Bu dövlət, bu cəlal nə varsa məndə!
Evimin qapısı açıqdır sizə
Tapşırıram vuran əllərinizə.
Mənə gün verməyir bolşevik Qəşəm,
Kəndə çaxnaşmanı o salır desəm,
Bilin ki, düz deyir ağanız Elxan
Yoxsa kor eləsin gözümü Quran
– Mən ölüm, dərdlənib qəm yemə, Elxan!
Hələ qurumamış xəncərimdə qan...
Əlimdə gəlməsə Qəşəmin başı
Mənə haram olsun bu duz, bu çörək
Elxan ustalıqla söyləyir: "Görək!"
– Çağırın yoldaşları
Deyin: – Gəlin, tez gəlin!

Duran qorxunc heykəlin
Parçalansın daşları
Çağırın yoldaşları!

Birləşsin əllərimiz
Od içində yer əkən
Omuzunda yük çəkən,
Bu dünyanı quran biz
Birləşsin əllərimiz.

Bürüyüb dörd bir yanı
O yol tapıb qaçmasın
Kola cığır açmasın
Diri tutaq düşmanı
Bürüyün dörd bir yanı.

Buludlara batsın ay,
Qaranlığı biz yaraq,
Günə salam aparaq!
Yıxılsın məğrur saray.
Buludlara batsın ay!

Çağırın yoldaşları!
Deyin: – Gəlin, tez gəlin!
Duran qorxunc heykəlin
Parçalansın daşları
Çağırın yoldaşları!

Üfüq qra, göy qara...
Gecəni yara-yara
Gəlir sarayın üstə,
Gəlir böyük bir dəstə,
Gəlir addımlayaraq
Birdən şarakhaşaraq
Tökülür pəncərələr,
Dinir dağlar, dərələr,
Od alır məğrur bina
Küsür yarandığına...
Ayılmamış Daşdəmir,



Hələ sümük gəmirir.
Yanır hava, yanır göy,
Alov yaşıl, alov göy...
Yan, ey cəllad yuvası!
Yan, ey ölüm havası!
Bizə həyat gərəkdir,
İstəyimiz çörəkdir!

Odur bax, dal qapıdan,
Çıxdı tüfəngli Elxan.
Hey boşalır daraqlar.
Nə "yeyin" əlləri var!

Arxalandı bir daşa
Atdığı çıxdı boşa.
Süysününün dalından
Od aldı odlu naqan.
Köksünə düşdü başı...
Vuran doğma qardaşı.
Düşmən şaşırmış, aha!
Az qalmışdır sabaha.

Qəşəm girir saraya
Yel olub əsmək üçün,
Kökünü kəsmək üçün
O bəylərin, xanların,
Axan ucuz qanların.
Tüstülər uda-uda,
Yatır şirin yuxuda,
Beşikdə bir qızcığaz.
Şair! Həyatı düz yaz!
"Qurddan olan qurd olar
Qoy yandırsın alovlar
Yurdda qalan bir qızı" –
deyib, o günahsızı
Oda atmaq istərkən
Açır gözünü birdən
Gülür sarı qızcığaz
Şair! Həyatı düz yaz!

Qəşəmi heyrət alır,
Qəşəm xəyala dalır.
Sanki deyir qızcığaz:
"Ey qəhrəman qulaq as!
Mənim nə taqsırım var?
Heç dözərmi analar
Ki, ölsün sonbeşiyi
Yıxılsın ev-eşiyi"

Qəşəm baxır bir qıza
Bir ölən əxlaqsıza
Deyir: "Sağ qalsın gərək!
Onu bizim gələcək
Böyüdəcək, şübhəsiz.
Qanlardan sadə bir iz
Qalmayacaq o zaman...
Bəlkə də, bir qəhrəman
Olacaq bu günahsız
Bu alagöz, sarı qız".

Açılmış artıq səhər,
Əsir sərin küləklər
İsti cənuba sarı
Qaralmış divarları
Yanan bir xanimanın.
Nə xalça var, nə xalı,
Nə Elxanın xançalı,
Nə də bahar gülləri
Yurdun soyuq külləri
Qarışaraq yellərə
Müjdə verir ellərə.
Qabaqda ney, balaban,
Gedir bizim qəhrəman
Arxasınca dəstəsi
Yayılır şərqi səsi:
"Çağırın yoldaşları
Deyin: – Gəlin, tez gəlin!
Duran qorxunc heykəlin
Parçalandı daşları
Çağırın yoldaşları!"



## Ordenli qəhrəman

Yenə də sayrışır göydə ulduzlar,
Gecədən keçmişdir, doğmayır səhər.
Dərin bir yuxuya getmişdir şəhər.
Yerdə nə hərəkət, nə hənirti var.
Yalnız milisyoner küçələrdə tək
Gəzir ayaq üstə mürgüləyərək.

Ay da güzgüsünü salmış dənizə,
Dəniz gümüş kimi par-par parıldar.
Həyat müvəqqəti vergidir bizə,
Hər baxış könüldə qalır yadigar.
Uğurlar sana, ey qoca kainat!
Yaşasın gələcək, yaşasın həyat.

Burda əfsanələr, sirlər yuvası
Viran Qız qalası dalmış səcdəyə
O, bəlkə, yalvarır, yaxarır göyə
Yazıq ki, gecənin bu xoş havası
O sınqın ruhuna yenə dar gəlir
Xəzərdən üstünə bir rüzgar gəlir...

Əvət! Qamçılayır, döyür bir rüzgar,
Dilsiz əsrlərin xatiratını –
Üstündə nəslimiz çapır atını.
Hər günün, gecənin bir qanunu var.
Öldü xan sarayı, xan əsgərləri
Öldü minarənin azan səsləri...

Yüksəlir bir bina başqa tərəfdən
Ağarmış bənizi ay işığında.
Onun bu axşamkı yaraşığında
Başqa bir gözəllik duyuram da mən.
Bu lövhə qaynadır yenə qanımı
Sizə təqdim edim qəhrəmanımı:
Qəhrəmanım yeni, şöhrəti yeni,

Döşündə Leninin qızıl ordeni.
Nədir alnındakı o qırışıqlar?
Onda cəbhələrdən xatirələr var.
Neçə çiçəkli yaz, neçə qarlı qış,
Sürgündə yaşayıb, qürbətdə qalmış.
Qolunda səslənmiş zəncir səsləri,
Ona gün verməmiş polis nəfəri.

Gecələr də qara... zindan da qara...
Salınmış zülm ilə qaranlıqlara.
Fəqət çəkilməmiş o öz yolundan,
Ümidlər gözləmiş gələcək ondan.
Uğurlar sana, ey qoca kainat!
Yaşasın gələcək, yaşasın həyat!

Çıxmış qəhrəmanım yenə balkona
Alqışlar göndərir ulduzlar ona.
Ay da işığını salmış üstünə
Alqış bu insana! Alqış bu günə!
Gecədən keçmişdir, yatır canlılar,
Gecənin qəlbində bir döyüntü var.
Yalnız o yatmamış, hələ oyaqdır,
Düşünən bir beyin yaşayacaqdır...
Onun gözlərinə yuxu gəlməyir,
Onun sinirləri heç dincəlməyir.
Çarpışır, vuruşur, düşünür, duyur,
Gəzinir, əyləşir, yazır, oxuyur.
İştə bir həyat ki hərəkətdədir.
İştə bir qanun ki təbiətdədir.

O, bəzən sevinir gülümsəyərək,
Qabardır döşünü böyük bir ürək.
Dünya gözlərində bir xoş mənzərə,
Əl çalıb oynayır hər daş, hər dərə.
Bəzən də hirslənir, oynayır gözü,
Birdən bulud kimi tutulur üzü.
Ruhunu, qəlbini bir duyğu sıxır,



Başından tüstülər, dumanlar çıxır.
Nədir düşündürən bu qədər onu?
Bəşər duyğusunun varmıdır sonu?

Mənim qəhrəmanım nə evlər sökür,
nə qanlı hərb üçün planlar tökür.
Görsə bir insanın o, göz yaşını,
Ürəyi dərdlənib, çatar qaşını.
Nə yurdlar, yaylalar, müstəmləkələr,
nə qızıl mədənli böyük ölkələr
Onun təmənnası deyildir, əvət!
O, başqa bir könül, başqa təbiət!
Napalyonlar kimi ordu çəkməmiş
Yandırıb yerində bostan əkməmiş.
Atını çapmamış o, dörd bir yana
Əlləri batmamış günahsız qana.

Çingiz xanlar kimi əfqanda, Çində,
Qılınclar çalmamış qanlar içində.
Güvənib gücünə, istedadına,
Saraylar qurmamış o öz adına.
O, başqa bir könül, başqa vüqardır
Onun göylər qədər mənası vardır.

Gəlir gözlərinin önünə bəzən,
Qoynunda ceyranlar, cüyürlər gəzən,
Şirvanın, Muğanın, Eldarın düzü,
Gülür qəhrəmanım, açılır üzü.
Əlilə tarladan ağ pambıq dərir,
Ellərə ruh verir, yollar göstərir.
Onun, sadəcə, bir əxlaqı vardır,
Gəncliyə ən gözəl bir yadigardır.
Ellərin yazdığı bir şeiri alan
Oxuyur yazdığı bloknotundan:
"Ay ellər, nə gözəl, nə xoş gəlibdir,
Uğurlu baharı, yazı pambığın.
Doğrudan, ağıza, dilə düşübdür,
Məclisi, söhbəti, sazı pambığın.

Xoş gəlib, bu qonaq bizim bu kəndə,
Qarış cərgəmizə, dayanma sən də.
Şəhərin qoynunda yellər əsəndə,
Can alır işvəsi, nazı pambığın.
Nə bir dilənçi var, nə ac bir insan,
Elləri qurtardı ölüm yasından.
Gərək indən belə hər qozasından,
Bir kilo toplansın, azı, pambığın.

Ayrı yer ayrılır qoyuna, mala,
Gəlinlər bəzənir qumaşa, ala.
Qarılar, qocalar baxmayır fala,
Dolur dəstə-dəstə düzü pambığın.

Dağlara gün doğur, xoş rüzgar gəlir,
Düşmanın başına dünya dar gəlir.
Kəndə qalaq-qalaq kitablar gəlir,
Çəkilir hər yerdə sözü pambığın.

Çağırdım yarışa Özbəkistanı,
Dedim, qüdrətimi yaxından tanı!
Mənə üstün gələn bir oğul hanı?
Çünki ağ yaranıb üzü pambığın.

Mehriban yaranıb o dosta, yara,
And içib, əhd edib bizim ilqara.
Gedir nümayəndə qurultaylara,
Söz alıb danışır özü pambığın".

Mənim qəhrəmanım oxuyur bunu,
Bir yeni dünyanın doğulduğunu.
Başqa bir vüqarla çatılır qaşı
Əsrinin Neronu Hitlərə qarşı.
And içir Leninin adına əlan
Yadlar ayağını tərpətsə bir an,
Bizim bu bəxtiyar ellərə qarşı
Alacaq Qafqazın mərd oğulları
Bütün cəbhələri aslanlar kimi –



Dönüb partlayacaq vulkanlar kimi,
O xain Neronun məğrur başında
Ömrünün bəxtiyar və gənc yaşında.
O vaxt qəhrəmanım, indidən tanı,
Olacaq ordunun baş komandanı.
Qalxacaq yenə də ərəb atına,
Sürüb səs salacaq yerin altına.
Düşmənin başına od yağdıracaq
O da öldürəcək, o da qıracaq.
Qəhrəmanın yeni, şöhrəti yeni
Döşündə Leninin qızıl ordeni.

Gecə can üstündə, açılır səhər,
Ayılır yuxudan, əsnəyir şəhər.
Artıq görünməyir nə ulduz, nə ay,
Bir yeni sürətlə qaçır tramvay,
Qoşur iş başına sağlam ürəklər.
Odur bax! Azacıq dənizdən kənar,
Göylərə baş vuran işlək buruqlar
Bir yeni qüvvətlə soxulmuş yenə
Bu sarı torpağın dərinliyinə...
Baxır qəhrəmanım onlara sarı,
Sevərək seyr edir o buruqları.
Parlayır alnında əzəmət, vüqar,
Üfüqdə at kimi çapır buludlar.
Gülür təbiətin o göyçək qızı,
Üfüqlər qırmızı, göylər qırmızı,
Qırmızı bir cahan əməlimizdir –
İşığı yandıran öz əlimizdir...
Uğurlar sənə, ey qoca kainat!
Yaşasın gələcək, yaşasın həyat!

Tarix, bu ixtiyar gəncliyinlə sən,
Mənim sözlərimin ilk şahidisən.
Dünya dəyişəcək atlas donunu,
Əzəldən qaydadır, bilirəm bunu.
İnsanlar gələcək, gedəcək bir-bir,
Sular məcrasını dəyişəcəkdir.

Özgə rəng alacaq çiçəklər, otlar
Yaracaq göyləri uçqun buludlar
Düşəcək sulara ay da, ulduz da,
Baxıb seyr edəcək oğlan da, qız da.
Açacaq sirrini bahar da, qış da,
Mehriban yağacaq qar da, yağış da.

Ruha küsməyəcək nə gül, nə yarpaq,
Sifariş verəcək günəşə torpaq...
Dodaqlarda gülüş, qollarda qüvvət,
Qardaş olacaqdır bizə təbiət.
O vaxt qoyulacaq qılınclar qına,
İnsanlar güləcək çocuq ağlına...
Mənim də sevdiyim bu əziz vətən,
İlhamlar alacaq gələcəyindən.
Açacaq ağzını qalın kitablar,
Bu ölməz insanlar, bu inqilablar
Bir-bir görünəcək gözlərimizə,
Salamlar verəcək gələcək bizə.
Elçilər gələcək Misirdən, Şamdan,
Günəşli gündüzdən, aylı axşamdan.
Leninin bayrağı üzərində biz,
Olacaq onlara ilk hədiyyəmiz.
Daşacaq Bakıda insanın sayı,
Şüarlar şərqinin ilk qurultayı
Burda başlanacaq! O gün ixtiyar
Bir mədən işçisi alnında vüqar,
Başının üstündə bir qızıl bayraq
Türkcə salam verib, iclas açacaq.
Ömrü az olsa da bu dastanımın,
O gün bilirəm ki, qəhrəmanımın
Burda yüksələcək bir tunc heykəli
Şərqi göstərəcək uzanan əli.



## Mündəricat

Səməd Vurğunun "Azərbaycan" epopeyası, yaxud "Qırmızı üzlü albom"un tarixçəsi (ön söz əvəzi) ..... 3

Şairin türküsü ..... 17
Torpağın tələbi ..... 18
Sərgüzəşt ..... 19
Zərdüştün xülyaları ..... 21
Ölən məhəbbət ..... 24
Bulaq əfsanəsi ..... 27
Qılınc və Quran ..... 29
Dar ağacı ..... 32
Füzulinin dərdi ..... 35
Qız qayası ..... 37
Şairin ölümü ..... 40
Aslan və Mahniyar ..... 44
Acı xatirələr ..... 59
Üsyan və Quran ..... 66
Ordenli qəhrəman ..... 73

Şərq East
Qərb West
Şərq-Qərb Nəşriyyat Evi

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Kərim Məhdəvi
Səhifələyici: Kübra İbrahimova
Korrektor: Nübar Qarayeva
Texniki redaktor: Gültəkin Cəfərova
Baş redaktor: Samirə Bektaşi
Baş dizayner: Nurlan Nəhmətov
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat Evinin direktoru: Rasim Müzəffərli

Çapa imzalanmışdır: 10.09.2015. Format: 70x100 1/16. Ofset çapı
Fiziki çap vərəqi 5. Sifariş 15150. Tiraj 500

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84
sharq.qarb@gmail.com

Şərq East
Qərb West
Şərq-Qərb Nəşriyyat Evi
BAKI
2015
9 789952 505931